# YENİ AZƏRBAYCAN

09 sentyabr 2026-cı il, çərşənbə
№ 162 (7229)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Azərbaycanın yüksək beynəlxalq nüfuza malik milli brendi




Bax səh. 2

## Qlobal iqlim diplomatiyasının paytaxtı

Bax səh. 3



Bax səh. 4

## YAP və ÇKP nümayəndələri Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər



Bax səh. 4

## YAP Mərkəzi Aparatında görüş keçirilib

## İnkişafın əsas sütunu

Qeyri-neft sektoru üzrə daxilolmalar artıb

Bax səh. 3

## Bakıda “Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq” mövzusunda beynəlxalq konfrans keçirilib

Bax səh. 4

## BTQ: Fransa Dənizaşırı ərazilərə səfər üçün viza qaydalarını sərtləşdirir

Bax səh. 6



## Moskvada və Kiyevdə aparılan danışıqlar: Sülh yaxındadır, yoxsa uzaqda?

Bax səh. 7

## BMT Baş Assambleyasının 81-ci sessiyası öz işinə başlayıb



Bax səh. 7

# Azərbaycanın yüksək beynəlxalq nüfuza malik milli brendi

## Ölkəmizdə 30 sentyabr - 2 oktyabr tarixlərində “ADEX” - 6-cı Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi keçiriləcək

ADEX
AZERBAIJAN DEFENCE EXHIBITION

Müstəqilliyimizin, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin qorunmasının qarantı qismində çıxış edən Silahlı Qüvvələrin döyüş hazırlığının gücləndirilməsini davamlı olaraq diqqət mərkəzində saxlayan və bu çərçivədə güclü müdafiə sənayesi qurmağı hədəfləyən Azərbaycan hərbi əməkdaşlıq sahəsində beynəlxalq əlaqələrini genişləndirir. Burada beynəlxalq sərgilərin önəmini ayrıca qeyd edə bilərik. Son illərdə Azərbaycan Müdafiə Sənayesi Nazirliyi mütəmadi qaydada ayrı-ayrı ölkələrdə baş tutan müxtəlif nüfuzlu sərgilərə qatılmaqla həm özünün yüksək texniki parametrlərə malik olan məhsullarını təqdim edir, həm də dünyanın qabaqcıl silah istehsalçıları ilə partnyorluq əlaqələrini genişləndirir.

Eyni zamanda, belə görüşlər Bakıda da baş tutur. Artıq respublikamızın ev sahibliyi ilə “ADEX” sərgisinin keçirilməsi ənənə halını alıb. Müdafiə sənayesi sahəsinin ən mötəbər beynəlxalq tədbiri, Qafqaz regionunun bu sahə üzrə ən böyük ixtisaslaşmış sərgisi və hərbi-texniki əməkdaşlığın əsas platformalarından olan “ADEX” - 6-cı Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi 30 sentyabr - 2 oktyabr tarixlərində Bakı Ekspo Mərkəzində keçiriləcək. “ADEX” Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilir. Sərginin təşkilatçısı “Caspian Event Organisers” şirkətidir.

## Milli müdafiə sənayesinin qurulması tarixi nailiyyətdir

Hazırda dünyadakı vəziyyət hər kəsə bəllidir. Beynəlxalq hüquq işləmir, bir sıra hallarda ədalət unudulur və ikili standartlar, güc amili önə keçir. Belə bir şəraitdə milli dövlətlərin güclü orduya malik olmaları zəruri şərt qismində çıxış edir.

İş elə gətirib ki, Azərbaycan da müstəqilliyinin ilk illəriindən təcavüz faktı ilə üzləşib. Ermənistan havadarlarının güclü dəstəyi ilə ərazilərimizin 20 faizini işğal altına alıb və bir milyondan artıq soydaşımız doğma ev-eşiklərini tərk etmək məcburiyyətində qalıblar. Məhz bir sıra böyük dövlətlərin, ayrı-ayrı beynəlxalq təşkilatların ikili standartlar nümayiş etdirmələrinə görə münaqişə təxminən üç onillik ərzində həllini tapmayıb, o cümlədən BMT-nin dörd qətnaməsi yerinə yetirilməyib.

Beynəlxalq hüququn süquta uğradığı belə kədərli reallıq fonunda Azərbaycan dövləti strateji baxış ortaya qoyaraq danışıqlar prosesinə sadiqlik nümayiş etdirməklə yanaşı, ordu quruculuğunu da öz siyasətinin prioritetlərindən biri kimi müəyyənləşdirdi. Bu strateji kursa uyğun olaraq Azərbaycan güclü iqtisadi potensialına əsaslanmaqla və artan maliyyə imkanlarından istifadə etməklə qısa müddətdə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə qadir olan müasir ordu formalaşdırmağa nail oldu. 44 günlük müharibə və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatı ordumuzun nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Belə ki, yüksək maddi-texniki təchizata və güclü kadr potensialına malik olan Silahlı Qüvvələrimiz qısa müddətdə düşməni tam kapitulyasiyaya məruz qoydu və ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam təmin olundu. Həmçinin ölkəmizdə postmüharibə dönəmində də ordu quruculuğu eyni intensivliklə davam etdirilir. Qalib Azərbaycan hansısa bir qonşu dövlətə qarşı ərazi iddiası sərgiləmir, ancaq elə hesab edir ki, güclü ordu sülhün qarantıdır.

Ölkəmizdə milli müdafiə sənayesinin formalaşdırılması da güclü ordu quruculuğu strategiyasının tərkib hissəsidir. Prezident İlham Əliyevin müvafiq sərəncamı əsasında 2005-ci ildə Müdafiə Sənayesi Nazirliyinin yaradılması müstəqil Azərbaycanın tarixində böyük nailiyyətdir və strateji önəm daşıyır. Qurumun fəaliyyət istiqamətlərinə əsasən, müdafiə sənayesi sahəsində vahid dövlət siyasətinin formalaşmasında iştirak etmək və bu siyasətin həyata keçirilməsini, habelə müdafiə sənayesi sahəsinin inkişafını təmin etmək, dövlət sifarişi əsasında hərbi texnika, silah, mühəndis texnikası, ehtiyat hissələri, döyüş sursatları və digər müdafiə təyinatlı məhsullar üzrə Dövlət Müdafiə Sifarişi Proqramına uyğun olaraq müdafiə təyinatlı məhsulların yaradılmasını, istehsalını, təkmilləşdirilməsini, təmirini, utilizasiyasını, idxal-ixracını təmin etmək daxildir. Milli müdafiə sənayesi quruculuğuna prioritet yanaşmanın təzahürü olaraq Prezident İlham Əliyev 7 sentyabr 2023-cü il tarixində Müdafiə Sənayesi Nazirliyinin tabeliyində “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) yaradılması haqqında fərman imzalayıb. QSC ölkənin müdafiə sənayesinin müasir tələblərə uyğunlaşdırılması və ordunun hərbi-texniki təchizatının daxili istehsal hesabına təmin edilməsi, Azərbaycanın regionda silah istehsal edən əsas sənaye mərkəzlərindən birinə çevrilməsinə nail olunması, habelə bu sahədə fəaliyyət göstərən dövlət müəssisələrinin qabaqcıl korporativ idarəetmə təcrübəsi tətbiq edilməklə rəqabətədavamlılığının, maliyyə-təsərrüfat fəaliyyətində dayanıqlılığın artırılması, gəlir və xərclərinə nəzarətin daha da gücləndirilməsi, vahid prinsiplər əsasında idarə olunması məqsədilə yaradılıb. Fərmana əsasən qurum silah istehsalının, ixracının, satışının təşkilini həyata keçirir, tabeliyində olan hüquqi şəxslərin vahid prinsiplər əsasında idarə edilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, onların maliyyə sabitliyinin və dayanıqlılığının yaxşılaşdırılması sahəsində işləri yerinə yetirir.

Hazırda Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan çoxlu sayda istehsalat böyük uğurla fəaliyyət göstərir. Artıq ordumuzun müxtəlif növ silah-sursatla təchizatı məhz yerli istehsal hesabına təmin edilir. O cümlədən respublikamızda buraxılan hərbi təyinatlı məhsulların müəyyən qismi ixraca yönəldilir. Qeyd edək ki, daxili istehsala aid “Zəfər”, “Zəfər-K”, “İnam” tapançaları, PKT, PKM pulemyotları, “Mübariz”, “İstiqlal”, “Yalquzaq”, “Yırtıcı” snayper tüfəngləri, “Boran” artilleriya qurğusu, “Qaya” tank əleyhinə əl qumbaraatanları, “Komando” tipli “Aşırım” minaatanları, “Matador” və “Marauder” zirehli hərbi texnikaları keyfiyyət göstəricilərinə görə öz seqmentləri üzrə bütün dünyada ən yaxşılardan sayılır.

Görülən işlərin nəticəsidir ki, Müdafiə Sənayesi Nazirliyi aviasiya, naviqasiya, cihazqayırma və digər istiqamətlər üzrə dünyanın inkişaf etmiş ölkələri ilə əməkdaşlıq edir. 2009-cu ildən başlayaraq nazirliyin müəssisələrində istehsal olunan məhsullar xaricdə keçirilən beynəlxalq müdafiə sənayesi sərgilərində də nümayiş etdirilir. Bu sərgilərdə Azərbaycan istehsalı olan məhsullar bir qayda olaraq böyük maraqla qarşılanır.




## Azərbaycanın müdafiə-sənaye kompleksinin gücü və texnoloji potensialı beynəlxalq auditoriyaya təqdim olunacaq

“Caspian Event Organisers” şirkətindən bildirilib ki, təşkil olunduğu ilk illərdən etibarən Prezident İlham Əliyevin “ADEX”i ziyarət edərək yaxından tanış olması, tədbirin iştirakçılarına və qonaqlarına salamlama məktubu ünvanlaması sərgiyə dövlət səviyyəsində yüksək diqqətin təzahürüdür. Bu, sərgiyə böyük etimadı nümayiş etdirməklə yanaşı, onun Azərbaycanın beynəlxalq nüfuza malik milli brendi statusunu təsdiqləyir.

Azərbaycanda “ADEX” sərgisi ilk dəfə 2014-cü ildə baş tutub. Türkiyə, Rusiya, Çin, Fransa, Belarus. Cənubi Afrika Respubliukası, bütövlükdə 34 ölkədən 200 şirkət və 22 rəsmi nümayəndənin qatıldığı bu sərgi müasir silah və texnikanın, habelə milli müdafiə sahəsində Azərbaycanın gücünün və qüdrətinin böyük nümayişinə çevrilib. Əgər Azərbaycan ilk qatıldığı sərgidə 27 adda məmulatla təmsil olunurdusa, “ADEX 2014”ə 37 şirkətlə qatılıb və 168 adda məmulat nümayiş etdirib.

İlk sərgidən sonra böyük yol keçilib və ildən-ilə müdafiə sənayemizin uğurları daha da artıb. Azərbaycanın müdafiə-sənaye kompleksinin gücü və texnoloji potensialı “ADEX 2026”da beynəlxalq auditoriyaya geniş şəkildə təqdim olunacaq. Belə ki, “ADEX 2026”nın əsas yeniliklərindən biri Bakı Ekspo Mərkəzinin 4-cü pavilyonunun ilk dəfə olaraq milli ekspozisiyaya ayrılmasıdır. Pavilyonda Azərbaycanın müdafiə sənayesi, texnologiya, kosmik sənaye və mühəndislik sahələrini təmsil edən qurum və şirkətlər yer alacaq. Milli pavilyonda Müdafiə Sənayesi Nazirliyi, Müdafiə Nazirliyi, Minatəmizləmə Agentliyi, Kosmik Agentliyi - “Azərkosmos”, “Rynex Solutions” MMC, “Synapline Technologies”, “Vektor DS”, “Miras Military Industrial Company” LLC, “ITX MOTORS”, Milli Müdafiə Universiteti, “RD Smart” ASC, “Az-Tex-Import” LLC, “AZEL Systems” və “Azərsilah” Müdafiə Sənayesi Holdinqi təmsil olunacaq.

Müdafiə Sənayesi Nazirliyi sərgini dəstəkləməklə yanaşı, tabeliyində olan “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” QSC ilə birgə stendlə təmsil olunacaq. Burada mövcud istehsal və texnoloji imkanlar, eləcə də ən son yeniliklər nümayiş etdiriləcək. Müdafiə Nazirliyi də sərgidə ayrıca stendlə iştirak edərək, fəaliyyət istiqamətlərini və imkanlarını təqdim edəcək.

## Artan beynəlxalq maraq - rekord genişlənmə

Azərbaycanın milli brendi olan “ADEX”in tarixində bu il ilk dəfə olaraq Bakı Ekspo Mərkəzinin 5-ci pavilyonu istifadəyə veriləcək. Sərgi üçün rekord hesab edilən bu mühüm yenilik “ADEX”in artıq yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir. Beşinci pavilyonun fəaliyyətə başlaması sadəcə ekspozisiya sahəsinin genişləndirilməsi deyil, “ADEX”in ildən-ilə artan nüfuzunun, beynəlxalq müdafiə sənayesində möhkəmlənən mövqeyinin və ona göstərilən böyük marağın əyani ifadəsidir.

Yeni ölkələrin və dünyanın tanınmış müdafiə sənayesi şirkətlərinin sərgiyə qoşulması, ənənəvi iştirakçıların isə “ADEX”də təmsilçiliklərini davam etdirməsi sərginin miqyasındakı rekord genişlənməni şərtləndirən əsas amillərdir.

İndiyədək dünyanın 20-dən çox ölkəsindən 200-dən artıq şirkətin “ADEX 2026”da iştirakını təsdiqləməsi sərgiyə olan beynəlxalq marağı aydın şəkildə ortaya qoyur. Bu il Amerika Birləşmiş Ştatlarının (ABŞ) “ADEX 2026”da fəal iştirakı xüsusi diqqət çəkir. Belə ki, ABŞ-ın “SIG SAUER” və “Lockheed Martin” kimi nüfuzlu şirkətləri “ADEX”də debüt edəcək. Böyük Britaniya və Almaniya ilk dəfə olaraq “ADEX 2026”nın iştirakçı ölkələri sırasına qoşulacaq. Almaniyanı sərgidə nüfuzlu “Rheinmetall” şirkəti təmsil edəcək. Bütün bunlar “ADEX”in beynəlxalq iştirak coğrafiyasının və nüfuzlu tərəfdaşlar dairəsinin genişlənməsinin bariz göstəricisidir.

Türkiyədən “ADEX 2026”nın baş sponsoru qismində çıxış edən “ROKETSAN”, həmçinin “ASELSAN Elektronik San. ve Tic. A.Ş.”, “BAYKAR”, “Turkish Aerospace Industries” (TAI) və “HAVELSAN Elektronik San. ve Tic. A.Ş.”, İtaliyadan “Leonardo”, Çexiyadan “Excalibur Army SPOL S.R.O”, Birləşmiş Ərəb Əmirliklərindən “EDGE Group” və İspaniyadan “INDRA” ADEX-in ənənəvi beynəlxalq iştirakçıları arasında yer alır.

Fərdi şirkətlərlə yanaşı, bir sıra ölkələr “ADEX 2026”da milli qruplar şəklində iştirak edəcək. Belarus, Çexiya, İtaliya, Türkiyə və Slovakiya əvvəlki illərdə olduğu kimi, bu il də milli ekspozisiyalarla təmsil olunaraq müdafiə sənayesi sahəsində məhsul və texnoloji həllərini nümayiş etdirəcək.

“ADEX” sərgisinə artan beynəlxalq maraq yalnız iştirakçı şirkətlərin sayında deyil, rəsmi nümayəndə heyətlərinin iştirakında da özünü göstərir. İndiyədək 26 ölkədən 32 rəsmi nümayəndə heyəti sərgidə iştirakını təsdiqləyib. Müxtəlif ölkələri təmsil edən yüksəksəviyyəli nümayəndə heyətlərinin iştirakı sərgi çərçivəsində ikitərəfli görüşlərin keçirilməsinə, müdafiə sənayesi sahəsində əməkdaşlıq perspektivlərinin müzakirəsinə və yeni əlaqələrin qurulmasına şərait yaradacaq.

## İki sərgi bir arada

“ADEX 2026” ilə paralel olaraq, Bakı Ekspo Mərkəzində 15-ci Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi - “Securex Caspian” də keçiriləcək.

“Securex Caspian” Müdafiə Sənayesi Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Sərhəd Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi, Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyasının dəstəyi ilə təşkil olunur.

Bu il miqyası əvvəlki illərlə müqayisədə daha da genişlənən “Securex Caspian” sərgisində kibertəhlükəsizlik sektoru diqqət mərkəzində olacaq. Bu istiqamətdə ən son texnologiyalar, innovativ həllər və qabaqcıl yanaşmalar nümayiş etdiriləcək.

“ADEX” və “Securex Caspian” sərgilərinin paralel keçirilməsi müdafiə sənayesi ilə daxili təhlükəsizlik istiqamətlərini vahid məkanda birləşdirəcək. Nəticədə müdafiə sənayesi texnologiyaları və hərbi texnika ilə yanaşı, daxili təhlükəsizlik, mühafizə, xilasetmə avadanlıqları və kibertəhlükəsizlik həlləri də təqdim olunacaq.

“ADEX 2026” və “Securex Caspian 2026”nın proqramı yalnız ekspozisiyadan ibarət olmayacaq. Sərgilərdə iştirakçı və ziyarətçilərə müdafiə sənayesi, daxili təhlükəsizlik, təhsil və kadr hazırlığı, innovasiyalar və yüksək texnologiyalar üzrə zəngin işgüzar proqram təqdim ediləcək.

“ADEX 2026” çərçivəsində Azərbaycanın dövlət qurumlarının nümayəndələri, beynəlxalq nümayəndə heyətləri və iştirakçı şirkətlər arasında keçiriləcək ikitərəfli danışıqlar xüsusi əhəmiyyət daşıyacaq. Bu görüşlər yeni işgüzar əlaqələrin qurulmasına, hərbi-texniki əməkdaşlığın genişləndirilməsinə, birgə layihələrin həyata keçirilməsinə və uzunmüddətli strateji tərəfdaşlıqların formalaşdırılmasına imkan yaradacaq.

Beləliklə, Azərbaycanın milli brendi “ADEX 2026” artan nüfuzu, ilk dəfə açılacaq 5-ci pavilyonu, genişlənən beynəlxalq coğrafiyası və dünyanın aparıcı müdafiə sənayesi şirkətlərinin iştirakı ilə öz tarixinin ən irimiqyaslı tədbirlərindən biri olmağa hazırlaşır. Bu mötəbər platforma Bakını növbəti dəfə beynəlxalq hərbi-texniki əməkdaşlığın əsas görüş məkanlarından birinə çevirəcək və Azərbaycanın milli brendi kimi qlobal nüfuzunu daha da möhkəmləndirəcək.

*Mübariz ABDULLAYEV*

# Qlobal iqlim diplomatiyasının paytaxtı

## Bakı İqlim Fəaliyyəti Həftəsi təmiz enerjiyə keçidin mühüm platformasına çevrilir

Azərbaycanda keçirilən Bakı İqlim Fəaliyyəti Həftəsi ətraf mühitin mühafizəsi və təmiz enerjiyə keçidin təmin edilməsində mühüm platforma kimi diqqəti cəlb etməkdədir. Ölkəmiz bu tədbirə də yüksək təşkilatçılıq etməklə qlobal iqlim diplomatiyasının mühüm mərkəzlərindən biri olduğunu təsdiqləməkdədir. Enerji böhranları, elektrikləşmə, rəqəmsallaşma, süni intellekt və data mərkəzlərinin yaratdığı sürətli tələb artımı fonunda enerji keçidinə balanslı yanaşmanın vacibliyi daha da ön plana çıxıb. Əsas məsələ ekoloji çağırışlara cavab verə biləcək təmiz, təhlükəsiz və dayanıqlı enerji sistemini optimal templə qurmaqdır. Bu isə yeni generasiya gücləri ilə yanaşı, elektrik şəbəkələrinin, enerji saxlanc sistemlərinin, enerji səmərəliliyinin və interkonnektorların paralel inkişafını tələb edir. Məhz bu konteksdən beynəlxalq ekoloji icma Bakı İqlim Fəaliyyəti Həftəsini gələcəyə hesablanmış yol xəritəsinin müəyyənləşdiyi platforma, peşəkar təcrübələrin öyrənilməsi üçün sanballı model kimi qiymətləndirir.

### Paytaxtda müəyyənləşən iqlim maliyyəsi çərçivəsi

Azərbaycan COP29 sammitində iqlimi ailəsi üçün yeni həll yollarını və maliyyə arxitekturası formalaşdırmaqla dərin etimad qazanıb. Avropanın bir çox ölkəsi də daxil olmaqla qitə ölkələrinin karbonsuzlaşdırma, 2030-cu ilə qədər qlobal bərpaolunan enerji potensialının üç dəfə artırılması, təbiətin qorunması və artırılması, karbon tullantılarının qorunması və emissiyaların üçdə birini təşkil edən qida sistemlərinin transformasiyası istiqamətində hərəkətləri sürətləndirmək barədə razılığa gəlməsi və yekun bəyannamələr imzalaması məsuliyyətli iqlim alyansını formalaşdırıb.

Beynəlxalq iqlim ailəsinin Bakı razılaşmasına əsasən, 2035-ci ilə qədər illik iqlim maliyyəsinin 1,3 trilyon dollara çatdırılması hədəflənir. Azərbaycanın təşəbbüsü ilə müəyyənləşmiş maliyyə həmrəyliyi konsepsiyasına əsasən, bütün ölkələr birgə çalışaraq təkcə dövlət sektorunun deyil, həm də özəl sektorun maliyyəsi hesabına 300 milyard dollarlıq iqlim maliyyə hədəfini 1,3 trilyon dollara çatdırmağa çalışacaq. Nəticədə bu hədəf prinsipləri iqlim hədəflərinə çatmaqda dayanıqlı maliyyə mexanizmlərinin formalaşmasında mühüm rol oynayacaq.



İqlim Həftəsi qlobal iqlim gündəliyinin əsas mövzularını əhatə edən strateji məsələlərin müzakirəsi ilə yadda qalmaqdadır. İqlim siyasətinin gücləndirilməsi, dayanıqlı moda, aqrobiznes, sənaye əmək bazarında ədalətli keçid və dayanıqlı tikinti mühiti kimi prioritet istiqamətlərdə bir araya gələn ekspertlər, dövlət və özəl sektorun və beynəlxalq təşkilatların nümayəndələri regional iqlim dayanıqlılığının artırılması, yaşıl texnologiyaların tətbiqi və iqtisadi transformasiyanın idarə olunması üzrə konkret təkliflər və yol xəritələri formalaşdırmaq təşəbbüsü ilə çıxış etməkdədir. İştirakçılar iqlim siyasətinin hüquqi əsaslarının möhkəmləndirilməsinin, şəffaf hesabatlılıq və "xalis sıfır" hədəflərinin reallaşdırılmasının vacibliyini qeyd edirlər. Aqrar sektorun iqlim dəyişikliyinə adaptasiyası, su resurslarının idarəedilməsi, torpaqların qorunması və yaşıl texnologiyaların tətbiqi üzrə praktiki təcrübələr paylaşılıb. İştirakçılar həmçinin aqrobiznesin maliyyələşdirilməsi və iqlim risklərinin azaldılması istiqamətində siyasətlərin uyğunlaşdırılması yolları da əsas müzakirə mövzusu kimi diqqəti cəlb edir.

Tədbir həm də Azərbaycanın "yaşıl infrastruktur" və "ağıllı şəhər" strategiyaları kontekstində yeni texnologiyaların tətbiqi, enerji səmərəliliyinin artırılması və yerli sənaye müəssisələrinin bu istiqamətdə rolu baxımından mühüm əhəmiyyət kəsb edir. Bu cəhətdən aparılan faydalı müzakirələr Azərbaycanın dayanıqlı tikinti mühiti üzrə yol xəritəsinin hazırlanması və həyata keçirilməsi üçün institusional əməkdaşlığında yeni imkanlar açacaq.

### "Qlobal Dəniz Külək Alyansı"na qoşulma

Azərbaycanın günəş və külək enerjisi imkanları qlobal iqlim ailəsi tərəfindən yüksək dəyərləndirilir və bu sahədə ölkəmizlə əməkdaşlıq edən investorların və təşkilatların sayı artır. Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin (IRENA) baş direktoru Françesko La Kamera Azərbaycanın iqlim alyansları ilə sıx əməkdaşlığını yüksək dəyərləndirib və agentliyin ən fəal və etibarlı tərəfdaşlarından biri olduğunu bildirib, COP29 çərçivəsində enerji saxlanc sistemləri, elektrik şəbəkələri və hidrogen üzrə irəli sürülmüş təşəbbüslərin qlobal enerji gündəliyinə mühüm töhfə verdiyini vurğulayan Kamera COP31-ə hazırlıq çərçivəsində ölkəmizin təşəbbüskarlığını təqdir edib. "Qlobal Enerji Saxlanc Sistemləri və Şəbəkələr üzrə Öhdəliyi"nin icrasına və "Hidrogen Bəyannaməsi" üzrə öhdəliklərin praktik həyata keçirilməsi təşəbbüslərin inkişafına dəstəklə bağlı mövqeyini nümunəvi adlandırıb.

IRENA rəhbəri Azərbaycanın "Qlobal Dəniz Külək Alyansı"na qoşulmasını təklif edib. Azərbaycanın Xəzər dənizində böyük külək potensialı nəzərə alınaraq bu təşəbbüs "yaşıl enerji" gündəliyi baxımından bütün tərəflər üçün xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan alyansda yer almaqla, Azərbaycan Xəzərin külək resusrslarının tədarük və nəqli sahəsində yeni fürsətlər qazanmış ola bilər.



Azərbaycan yaşıl enerji" bağlantısının istismara verilməsi

### Hədəf 8 QVt gücündə günəş və külək enerjisi istehsalıdır

Azərbaycanın müəyyən etdiyi strateji baxışa uyğun olaraq ölkəmizdə enerji təhlükəsizliyi ilə "yaşıl keçid"inin uzlaşdırılması təmin olunmaqdadır. Hazırda təxminən 8 QVt gücündə günəş və külək enerjisi layihələrinin icrası ilə paralel elektrik şəbəkələri gücləndirilir, enerji saxlanc sistemləri tətbiq edilir və yeni interkonnektorlar yaradılır. Bu ilin sonunadək külək enerjisi istehsalının təxminən 6 dəfə, günəş enerjisi istehsalının isə 26 faizdən çox artacağı gözlənilir. Gələn ilin sonunadək təxminən 2 QVt günəş və külək enerjisi gücünün şəbəkəyə inteqrasiyası emissiyaların ildə 2,4 milyon ton azalmasına imkan verəcək.

Yeri gəlmişkən, 2026-cı ilin birinci yarısında Azərbaycanda elektrik enerjisinin istehsalı 13 milyard 388,6 milyon kVt•st olub ki, onun təxminən 22 faizi "yaşıl enerji" güclərinin payına düşüb. Belə ki, bu dövrdə su elektrik stansiyalarında (SES-lər) 1 milyard 891,7 milyon kVt•st, o cümlədən külək elektrik stansiyalarında 475,7 milyon kVt•st, günəş elektrik stansiyalarında 282,7 milyon kVt•st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 143,6 milyon kVt•st elektrik enerjisi istehsal edilib. 6 ay ərzində 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə su elektrik stansiyalarında 31,2 milyon kVt•st, külək elektrik stansiyalarında 454,7 milyon kVt•st enerji istehsalı artıb. Ümumilikdə, SES-lər də daxil olmaqla bərpaolunan enerji mənbələri üzrə elektrik enerjisi istehsalı 463,1 milyon kVt•st artımla 2 milyard 793,7 milyon kVt•st təşkil edib. Bu, ölkəmizin bərpaolunan enerjinin sürətli istehsalına nail olduğunu və qlobal iqlim ailəsinin təmiz enerjiyə keçid proqramlarında daha fəal olmasını təsdiqləyən amillərdən biridir.

### Zəngəzur və Naxçıvan enerji dəhlizlərinin yaradılması

Hazırda Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma, enerji və iqlim siyasətləri vahid yanaşma əsasında həyata keçirilir, Naxçıvanda "Yaşıl Enerji Zonası" konsepsiyasının reallaşdırılması istiqamətində ardıcıl addımlar atılır. "Yaşıl enerji"nin beynəlxalq bazarlara çatdırılması istiqamətində ümumi gücü 3900 MVt olan "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi"nin texniki-iqtisadi əsaslandırması çərçivəsində layihə sürətlə irəliləməkdədir. 2032-ci ildə bu dəhlizin birinci mərhələsinin və "Mərkəzi Asiya-gözlənilir. Həmçinin Gürcüstan, Zəngəzur dəhlizi və Naxçıvan vasitəsilə Türkiyə və Avropa istiqamətində "yeni yaşıl enerji dəhlizləri"nin yaradılması üzrə işlər aparılır.

Beləliklə, qarşıya qoyulan hədəflərin reallaşması Azərbaycanın təmiz enerjiyə keçidini sürətləndirəcək, real emissiya azalmaları ilə irəlilədilməsinə töhfə verəcək, regional bağlantıların mərkəzinə çevirəcək.

***E.CƏFƏRLİ***

# İnkişafın əsas sütunu

## Qeyri-neft sektoru üzrə daxilolmalar artıb

2026-cı ilin yanvar-avqust ayları ərzində ölkəmizdə qeyri-neft sektoru üzrə iqtisadi fəallıq artıb və bu dinamika fiskal yığımlara mühüm təsir göstərib.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) xəttilə dövlət büdcəsinə 12 milyard 619,1 milyon manat vergi daxil olub ki, bu da proqnoza nisbətən 900,1 milyon manat çoxdur. 2025-ci ilin müvafiq dövrünə nisbətən vergi daxilolmaları 1 milyard 58 milyon manat və ya 9,2 faiz artıb. Həmin vergilərin 9,5 milyarda manata yaxını qeyri-neft-qaz sektorundan daxilolmalardır. Bu sahə üzrə büdcəyə proqnozdan əlavə 281,7 milyon manat vəsait ödənilib ki, bu da 2025-ci ilin müvafiq dövrünə nisbətən 12,3 faiz çoxdur.

Qeyri-neft sektorundakı artım digər yığım mənbələrində də özünü göstərib. Belə ki, yanvar-avqust aylarında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 4 milyard 546,6 milyon manat olub, proqnozdan əlavə 252,8 milyon manat vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 3 milyard 52,7 milyon manatdan çox təşkil edib. Həmin dövrdə işsizlikdən sığorta haqları üzrə daxilolmalar 161,8 milyon manata yaxın olub, proqnozdan əlavə 7,5 milyon manat vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 125,3 milyon manatdan çox təşkil edib.

Həmçinin, icbari tibbi sığorta haqları üzrə daxilolmaların həcmi 682 milyon manatdan çox olub, proqnozdan əlavə 17,4 milyon manat vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 456,3 milyon manata yaxın təşkil edib.

### 50 milyarddan 90 milyard manata çatan əlavə dəyər

Hazırda qeyri-neft ÜDM-in həcmi cəmi ölkə üzrə yaradılan əlavə dəyərin (illik) təxminən 90 milyard manatına bərabərdir. Halbuki bu rəqəm, 2020-ci ildə 50,8 milyard manat təşkil edirdi. Cəmi beş il ərzində (2026-cı il nəzərə alınmadan) bu sektorda təxminən 70 faizlik artım baş verib. Bu, iqtisadiyyatın strukturunda dərinləşən dəyişimin göstəricisidir və iqtisadi genişlənmə qeyri-neft drayverləri olan istehsal, sənaye, turizm, xidmət və innovasiyalar, tranzit daşınmaları üzrə təmin edilməkdədir. Son illərdə sənaye zonaları, aqroparklar, logistika və nəqliyyat layihələrinə yönələn investisiyalar, həmçinin turizm və texnologiya sahələrindəki genişlənmə nəticəsində Azərbaycan iqtisadiyyatı artıq neftdən kənar sabit gəlir mənbələri formalaşdırıb. Bu, onu göstərir ki, Azərbaycanın növbəti mərhələdə iqtisadi artımını təmin edən əsas qüvvə qeyri-neft sektoru olacaq - yəni ölkə tədricən xammaldan kapital və xidmət ixracatına keçid mərhələsinə qədəm qoyub, ölkə artıq təkcə neft gəlirləri ilə deyil, real sektorun və xidmət iqtisadiyyatının hesabına böyüyür.




### Qeyri-neft ÜDM-nin ilin sonunda 100 milyard manata çatacağı gözlənilir

Qeyd edək ki, hökumət bir müddət əvvəl 2026-cı il üzrə yenilənmiş makroiqtisadi proqnozları açıqlayıb ki, sənəddə qeyri-neft sektoru üzrə artımın ilin əvvəlində tərtib edilmiş cari gözləntilərdən daha yüksək olacağı fərz olunur. 2026-cı ilin ilk 6 ayının makrofiskal nəticələri, həmçinin qlobal miqyasda iqtisadi artımla və enerji daşıyıcılarının qiymətləri ilə bağlı gözləntilər fonunda cari ildə ölkə iqtisadiyyatının 1-2 faizlik artım tempi nümayiş etdirəcəyi, ilin sonunda ÜDM-in real ifadədə artımı 1,7 faiz olmaqla 138 milyard manata çatacağı gözlənilir. Qeyri-neft ÜDM-nin real ifadədə artımı 3,1 faiz olmaqla 100 milyard manata çatacağı gözlənilir. Yəni ilin əvvəli ilə gözləntidə tikinti və turizm sektoru üzrə nəzərdə tutulandan aşağı artım templərinin fərz olunması ÜDM-in cüzi azalmasına səbəb olacaq. Bunun nəticəsində əvvəlki proqnoza nisbətən qeyri-neft-qaz sektoru üzrə ÜDM-in real artım tempi 5 faizdən 3,1 faizə enəcəyi ehtimal olunur. Ancaq bütün bunlara baxmayaraq ölkədə ilin sonunda yaradılacaq əlavə dəyərin 74-75 faizi qeyr-neft mənbələrinin üzərində cəmləşəcək. Bu, qeyri-neft sektorunun yenə də iqtisadi-fiskal bölmələrinin əsas drayveri olacağını yəqinləşdirir.

### Xarici maliyyə institutlarının proqnozları nikbindir

Yeri gəlmişkən, beynəlxalq iqtisadi institutların açıqladığı hesabatlarda da Azərbaycanın iqtisadi artımının əsas sütunu kimi qeyri-neft yığımlarının başlıca yer tutacağı vurğulanır.

"Fitch Solutions"un Azərbaycan iqtisadiyyatı ilə bağlı proqnozlarında bildirilir ki, neft sektorunda son illərdə azalmanın müşahidə edilməsi bu sektordan daxil olan gəlirləri də kiçildir, qlobal bazarlarda gözlənilən situasiyalar qarşıdakı dövrdə neft satışı üzrə fiskal yığımları bir qədər də azalda bilər. Ancaq buna baxmayaraq, qeyri-neft sahələri hesabına ümumi iqtisadi artım böyüməkdədir.

Digər iqtisadi qurumun - "Moody's Ratings" beynəlxalq reytinq agentliyinin analitikləri isə hesab edirlər ki, Azərbaycan iqtisadiyyatında ilin sonunda qeyri-neft sektorunda artım təxminən 4 faiz gözlənilir.

Niderlandın "ING" təşkilatının bir müddət əvvəl açıqladığı qlobal hesabatda isə ölkəmizdə qeyri-neft ÜDM-nin 3-3,5 faiz nisbətində olacağı əksini tapıb. Asiya İnkişaf Bankının açıqladığı "Asian Development Outlook" icmalında isə Azərbaycanda ÜDM-in neftdənkənar bölməsində artım proqnozu 4-4,2 faiz intervalında qərarlaşdırılıb.

Beynəlxalq Valyuta Fondunun "World Economic Outlook" hesabatında Azərbaycanda 2026-cı ildə qeyri-neft sektorunda orta illik artım tempinin 3,5-4 faiz olacağı fərz edilir. Dünya Bankının (DB) qlobal iqtisadiyyatla bağlı yenilənmiş proqnoz-xülasəsində vurğulanır ki, böyük həcmdə dövlət investisiyaları sayəsində hazırda əlavə dəyərin həcmi davamlı şəkildə böyüyür. Bu faktorun 2026-cı ildə qeyri-neft ÜDM-də 3,8 faiz təşkil edəcəyi ehtimal olunur.

***E.CƏFƏRLİ***

# YAP və ÇKP nümayəndələri Ümummilli Lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər






Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysinin rəhbərlik etdiyi nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə ölkəmizə səfərə gəlib.

Səfər çərçivəsində sentyabrın 8-də YAP-ın nümayəndələri və ÇKP nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

# YAP Mərkəzi Aparatında görüş keçirilib







Sentyabrın 8-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin (ÇKP MK) üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin məqsədyönlü siyasəti nəticəsində iki ölkə arasında münasibətlərin dostluq və hərtərəfli strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf etdiyi vurğulanıb.

Konstruktiv siyasi dialoq şəraitində iqtisadi-ticari, nəqliyyat-logistika, təhsil, turizm, mədəni, humanitar, rəqəmsal texnologiyalar, "yaşıl enerji" və digər sahələrdə əlaqələrin daha da genişləndiyi qeyd olunub.

Hər iki ölkənin qlobal miqyasda mühüm təşəbbüslərlə çıxış etdiyi qeyd olunaraq "Bir kəmər, bir yol" və Zəngəzur dəhlizi layihələrinin geostrateji əhəmiyyəti və perspektivləri diqqətə çatdırılıb.

Çinin Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin inkişafına dəstək göstərməsinin səmimi dostluq və tərəfdaşlıq nümunəsi olduğu bildirilib.

Azərbaycan-Çin hərtərəfli strateji tərəfdaşlığının təkcə iki ölkə arasında münasibətlərin inkişafı ilə əlamətdar olmadığı, eyni zamanda, Qlobal Cənubda əməkdaşlığın təşviqi baxımından olduqca mühüm əhəmiyyət daşıdığı vurğulanıb.

Beynəlxalq hüquq normalarına əsaslanan müstəqil siyasət yürüdən, separatizmin bütün forma və təzahürlərini pisləyən hər iki ölkənin bir-birinin müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə qətiyyətli dəstəyinin önəmi vurğulanıb.

Dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi YAP ilə ÇKP arasında əlaqələrin inkişafının xüsusi diqqət mərkəzində olduğu vurğulanıb. Qarşılıqlı səfərlərin, fikir və təcrübə mübadiləsinin partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd edilib.

2024-cü ilin noyabr ayında YAP nümayəndə heyətinin Çinə səfəri çərçivəsində imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsinin ölkələrarası hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmlənməsinə önəmli töhfələr verdiyi bildirilib.

2026-cı il 11-15 may tarixində YAP nümayəndə heyətinin dost ölkəyə səfəri çərçivəsində tərəflər arasında keçirilən görüşlər məmnunluqla xatırlanaraq əməkdaşlığın dərinləşdirilməsinə hədəflənən qarşılıqlı səfərlərin davamlı xarakter daşıyacağına və birgə fəaliyyət nəticəsində bundan sonra da ardıcıl nailiyyətlərin qazanılacağına əminlik ifadə olunub.

Gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunularaq bu sahədə ixtisaslaşmış təhsil müəssisələri arasında işbirliyinin önəmi qeyd olunub.

Görüşdə partiyalararası əməkdaşlığın gələcək istiqamətləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Bakıda "Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirilib

Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzi (BMTMM) və İsveçrənin Sent-Qallen Universitetinin nəzdində fəaliyyət göstərən Avropada İdarəçilik və Mədəniyyət Mərkəzinin (Center for Governance and Culture in Europe - GCE-HSG) birgə təşkilatçılığı ilə "Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans keçirilib.

İki gün davam edən konfrans çərçivəsində Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlığın gələcəyi, 44 günlük müharibədən sonra regionda formalaşan yeni geosiyasi reallıqlar, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, nəqliyyat və kommunikasiya əlaqələrinin inkişafı, yeni infrastruktur layihələri, iqtisadi inteqrasiya, TRIPP layihəsi, mümkün xarici risklər, eləcə də Avropa İttifaqının regionda dayanıqlı əməkdaşlığın və bağlantıların gücləndirilməsində rolu əsas müzakirə istiqamətlərini təşkil edib.

BMTMM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, Azərbaycanın coğrafi mövqeyi və həyata keçirdiyi nəqliyyat layihələri onu Şimal və Cənub istiqamətlərində mövcud geosiyasi qarşıdurmalar arasında mühüm bağlantı məkanına çevirib. Bu baxımdan, Azərbaycanın təşəbbüsü ilə inkişaf etdirilən Orta Dəhlizin fəaliyyəti regionun nəqliyyat və iqtisadi əlaqələrinin genişləndirilməsində xüsusi əhəmiyyət daşıyır. Onun sözlərinə görə, Azərbaycan bu müzakirələrdə həm coğrafi mövqeyi, həm də həyata keçirdiyi regional təşəbbüslərlə xüsusi yer tutur:



Avropada İdarəçilik və Mədəniyyət Mərkəzinin Akademik Şurasının üzvü Ulrix Şmid Cənubi Qafqazda baş verən proseslər, Azərbaycanla Ermənistan arasında yeni sülh təşəbbüsünün regional əməkdaşlıq üçün yaratdığı imkanlar və bu proseslərin Rusiyanın regiondakı mövqeyinə mümkün təsirləri beynəlxalq ekspert dairələrinin diqqət mərkəzində olduğunu qeyd edib.

İsveçrənin Azərbaycan və Türkmənistandakı Səfirliyinin Regional Əməkdaşlıq bölməsi rəhbərinin müavini Qay Bonvin qeyd edib ki, Cənubi Qafqazın coğrafi mövqeyi regionu Avropa, Qara dəniz və Mərkəzi Asiya arasında mühüm bağlantı məkanına çevirir. Azərbaycanın bu prosesdə mühüm rol oynadığını deyən diplomat ölkənin son 30 ildə keçdiyi inkişaf yolunun və regional əlaqələrin genişlənməsinin diqqətəlayiq olduğunu vurğulayıb.

Tədbir çərçivəsində Avropada İdarəçilik və Mədəniyyət Mərkəzinin (GCE-HSG) direktoru, idarəçilik, regional siyasət və sosial-siyasi transformasiya üzrə ekspert Alexander Meienbergerin moderatorluğu ilə keçirilən birinci panel "İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz: Yeni regional düzən?" mövzusuna həsr olunub.

Sessiyada Cənubi Qafqazda meydana çıxan yeni geosiyasi reallıqlar, Azərbaycanın regionda artan rolu və xarici siyasət prioritetləri, həmçinin regional təşəbbüslər və müxtəlif güc mərkəzləri arasında formalaşan münasibətlər ətrafında fikir mübadiləsi aparılıb.

Paneldə hüquqşünas, araşdırmaçı, İspaniya Deputatlar Konqresinin və Senatının keçmiş üzvü Jordi Xucla "Azərbaycanın Cənubi Qafqazda dəyişən geosiyasi roluna və Avropa İttifaqının strateji dönüşü"nə dair yanaşmalarını təqdim edib. Onun sözlərinə görə, 2025-ci ilin avqustundan etibarən regionda baş verən proseslər sülhün möhkəmləndiyini və regional inteqrasiyanın irəlilədiyini göstərir. Bu dəyişikliklər Cənubi Qafqazda əvvəlki geosiyasi reallıqların tədricən aradan qalxmasına və yeni əməkdaşlıq imkanlarının meydana çıxmasına şərait yaradır. Bu prosesə müxtəlif amillər, o cümlədən Rusiya-Ukrayna müharibəsi təsir göstərib.

Yeni Avrasiya Observatoriyasının (ONE) həmtəsisçisi, Mərkəzi Asiya və Rusiyanın Asiyaya siyasəti üzrə ekspert Michael Levystone "2020-ci il İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın xarici siyasəti"ndə baş verən dəyişikliklərə nəzər salıb. O, Azərbaycanın regiondakı həlledici roluna diqqət çəkib.

ADA Universitetində Dövlət İdarəçiliyi üzrə dosent, postsovet məkanında dövlət siyasəti, idarəçilik, demokratiya və şəhər inkişafı üzrə mütəxəssis Anar Vəliyev isə "Tarazlıq axtarışında: Cənubi Qafqazda rəqabət aparan regional yanaşmalar fonunda Azərbaycan və qoşulmama siyasəti" mövzusunda analitik təqdimatla çıxış edib.

Konfrans proqramının davamı olaraq, iştirakçıların Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahə tədqiqatları aparması, Ermənistanın işğalı dövründə ərazilərdə törədilmiş dağıntılarla və regionda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri ilə yerində tanış olması məqsədilə info-turun keçirilməsi nəzərdə tutulur.

İnfo-tur Ağdam, Cəbrayıl, Füzuli, Şuşa və Laçın ərazilərini əhatə edəcək.

# YAP ölkəmizin inkişafında müstəsna rol oynayır




Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Xızı rayon təşkilatının X konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Xızı rayon təşkilatının sədri Ayaz Quliyev hesabat məruzəsi ilə çıxış edərək təşkilatın ötən dövr ərzində gördüyü işlər, rayonda həyata keçirilən ictimai-siyasi tədbirlər və partiya üzvlərinin ictimai proseslərdə fəal iştirakı barədə məlumat verib. O, təşkilatın fəaliyyətinin partiyanın müəyyən etdiyi əsas prinsiplər və qarşıya qoyulan vəzifələr əsasında davam etdirildiyini vurğulayıb. Qeyd olunub ki, partiya üzvləri rayonun ictimai-siyasi həyatında fəal iştirak edir, müxtəlif sosial, mədəni və ictimai tədbirlərdə yaxından iştirak etməklə, qarşıya qoyulan vəzifələrin həyata keçirilməsinə öz töhfələrini verirlər.

Konfransda Xızı Rayon İcra Hakimiyyətinin başçısı Xəzər Aslanov çıxış edərək Yeni Azərbaycan Partiyasının yaranmasının tarixi-siyasi zərurətdən irəli gəldiyini, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə partiyanın qısa müddətdə geniş ictimai dəstək qazandığını və Azərbaycanın siyasi həyatında aparıcı qüvvəyə çevrildiyini diqqətə çatdırıb.

Milli Məclisin deputatı Müşfiq Məmmədli isə YAP-ın keçdiyi inkişaf yolundan, təşkilatlanma ənənələrindən və ölkənin ictimai-siyasi həyatında oynadığı mühüm roldan bəhs edib. O bildirib ki, Yeni Azərbaycan Partiyası xalqa və dövlətə xidmət nümunəsi kimi milli maraqlara sadiqlik nümayiş etdirir.

Tədbirdə YAP Xızı rayon təşkilatı "İcra Hakimiyyəti" ərazi partiya təşkilatının sədr müavini Tünzalə İmanova və təşkilatın veteran üzvü Svetlana Rüstəmova çıxış edərək Ulu Öndər Heydər Əliyevin Yeni Azərbaycan Partiyasının yaradılmasında tarixi rolundan və dövlətçiliyimizin möhkəmləndirilməsində misilsiz xidmətlərindən danışıblar. Bildirilib ki, YAP ölkəmizin inkişafında müstəsna rol oynayır. Çıxışlarda Xızı rayonunda əhalinin ictimai-siyasi fəallığının artırılması və cəmiyyətdə rolunun gücləndirilməsi istiqamətində mühüm işlər görüldüyü vurğulanıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Orxan Bayramov isə çıxışında partiyanın müasir dövrdə fəaliyyət istiqamətlərinə toxunaraq dövlətçilik ənənələrinin qorunması, milli həmrəyliyin və ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətini vurğulayıb.

Konfransda YAP Xızı rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# Hədəflər reallığa çevrilir




Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Gəncə şəhər təşkilatının X hesabat konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP İdarə Heyətinin üzvü, partiyanın Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov hesabat məruzəsi ilə çıxış edib. Qeyd olunub ki, şərəfli yol keçən Yeni Azərbaycan Partiyasının fəaliyyətinin əsas istiqamətlərindən biri dövlətçilik ənənələrinin qorunması və inkişaf etdirilməsidir. Partiyanın ideoloji xəttində milli maraqlar daim üstün tutulur. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kurs Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən yeni çağırışlara uyğun şəkildə davam etdirilir. Xüsusilə son illərdə ölkəmizdə həyata keçirilən siyasi-iqtisadi və sosial islahatlar modeli qlobal arenada təqdir edilir.

Gəncə Şəhər İcra Hakimiyyəti başçısının müavini Adil Tağıyev çıxış edərək bildirib ki, Ümummilli Liderin layiqli davamçısı, Prezident İlham Əliyevin həyata keçirdiyi müdrik siyasət ölkəmizə böyük nüfuz qazandırıb, Azərbaycanı qalib ölkəyə çevirib. Vurğulanıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yeni reallıqlara uyğun olaraq qarşıdakı hədəflərə nail olmaq üçün böyük potensiala malikdir.

AMEA-nın Gəncə bölməsinin sədri, akademik Fuad Əliyev bildirib ki, Yeni Azərbaycan Partiyasının fəaliyyəti ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayır və partiyanın qarşıya qoyduğu məqsədlər davamlı inkişafa xidmət edir.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə bildirib ki, 44 günlük Vətən müharibəsi və lokal xarakterli antiterror tədbirlərində qazanılmış tarixi zəfərlərdən sonra Azərbaycan yeni tarixi mərhələyə qədəm qoyub. O vurğulayıb ki, postmüharibə dövründə Qarabağ və Şərqi Zəngəzurun bərpası, keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışının təmin edilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi və ölkənin beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsi qarşıda duran mühüm hədəflərdəndir.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Naqif Həmzəyev çıxışında Yeni Azərbaycan Partiyasının cəmiyyətin ictimai-siyasi həyatında mühüm rolundan danışıb. O, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi mühüm nailiyyətləri vurğulayıb.

Milli Məclisin deputatı Müşfiq Cəfərov Azərbaycan dövlətçiliyinin formalaşmasında, ölkəmizdə ictimai-siyasi sabitliyin bərqərar olmasında, dövlətimizin beynəlxalq aləmdə nüfuzunun artmasında YAP-ın mühüm rolundan bəhs edib. O bildirib ki, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan möhtəşəm nailiyyətlər qazanıb, bütün hədəflər reallığa çevrilib.

Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov bildirib ki, Yeni Azərbaycan Partiyası nəinki Azərbaycanın, eləcə də Cənubi Qafqazın ən böyük siyasi təşkilatına çevrilib. O, "Ulu Öndər Heydər Əliyevin yaratdığı partiya hər zaman xalqın etimadını doğruldub", - deyə qeyd edib.

Yeni Azərbaycan Partiyası Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov qeyd edib ki, partiya üzvləri ölkənin ictimai-siyasi həyatında fəal iştirak edərək dövlət siyasətinin uğurla həyata keçirilməsinə mühüm töhfələr verirlər.

Konfransda YAP Gəncə şəhər təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Yeni dövr şanlı qələbələrlə başlayıb, möhtəşəm uğurlarla davam edir




Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Yevlax rayon təşkilatının XI konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Yevlax rayon təşkilatının sədri Rafiq Əliyev hesabat məruzəsi ilə çıxış edib. O, müasir müstəqil Azərbaycanın və Yeni Azərbaycan Partiyasının qurucusu, Ulu Öndər Heydər Əliyevin zəngin siyasi irsindən ətraflı danışıb. R.Əliyev bildirib ki, Ümummilli Liderin müəyyənləşdirdiyi siyasi kurs Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində ölkəmiz misilsiz nailiyyətlər əldə edib.

Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən regional inkişaf proqramlarının Yevlaxda uğurla icra olunduğunu bildirib. O, partiya fəallarının bu istiqamətdə görülən işlərə mühüm töhfələr verdiklərini diqqətə çatdırıb.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli çıxışında Azərbaycanın əldə etdiyi tarixi qələbələrə, ölkəmizdə hüquqi dövlət quruculuğu və demokratik inkişaf istiqamətində həyata keçirilən islahatlara diqqəti cəlb edib. Komitə sədri qeyd edib ki, müasir dövrdə əldə olunan misilsiz nailiyyətlər dövlətimizin qüdrətinin və ölkəmizin inkişaf potensialının göstəricisidir. O, bu strateji inkişaf xəttinin uğurla həyata keçirilməsində Yeni Azərbaycan Partiyasının vahid ideoloji platforma kimi mühüm rol oynadığını bildirib.

Milli Məclisin deputatı İlham Məmmədov ölkəmizdə formalaşmış xalq-iqtidar birliyindən bəhs edib. O, dövlətimizin başçısının həyata keçirdiyi məqsədyönlü daxili və xarici siyasətin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini, əldə olunan mühüm nəticələrin dayanıqlı inkişafı və milli həmrəyliyi daha da gücləndirdiyini qeyd edib. Deputat Yeni Azərbaycan Partiyasının cəmiyyətin etimadını qazanan aparıcı siyasi qüvvə kimi ölkənin inkişaf prosesində fəal rol oynadığını vurğulayıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Fəsli Nəbiyev çıxışında partiyada yüksək səviyyəli nizam-intizamın və gənclərin siyasi proseslərə cəlb olunmasının əhəmiyyətini vurğulayıb. O, "Yevlax rayon təşkilatının fəalları dövlətçilik prinsiplərinə sadiqlik nümayiş etdirir", - deyə vurğulayıb.

Konfransda YAP Yevlax rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# Yeni Azərbaycan Partiyasının fəaliyyəti milli maraqlara əsaslanır




Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Laçın rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda hesabat məruzəsi ilə çıxış edən YAP Laçın rayon təşkilatının sədr müavini Şamo Qasımov Yeni Azərbaycan Partiyasının zəngin və şərəfli yol keçdiyini, öz siyasi xətti və fəaliyyəti ilə xalqın partiyasına çevrildiyini bildirib. Qeyd olunub ki, YAP Laçın rayon təşkilatı partiyanın rayon strukturlarından biri kimi Laçının işğal altında olduğu dövrdə də fəaliyyətini uğurla davam etdirib. Laçının işğaldan azad edilməsindən sonra isə təşkilat qarşısında yeni və mühüm vəzifələr yaranıb. Hazırda rayon təşkilatı azad Laçında ictimai-siyasi proseslərin fəal iştirakçısı kimi fəaliyyətini davam etdirir. Hesabat dövründə ideoloji fəaliyyət istiqamətində Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin, azərbaycançılıq məfkurəsinin, milli dövlətçilik dəyərlərinin, eləcə də Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasətin təbliğinə xüsusi diqqət yetirilib.

Konfransda çıxış edən Laçın Rayon İcra Hakimiyyətinin başçısı Aqil Nəzərli Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın dövlətçilik tarixində misilsiz xidmətlərindən danışıb. A.Nəzərli vurğulayıb ki, Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan böyük uğurlar əldə edib. Tarixi Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işləri, o cümlədən Laçında görülən işlər Böyük Qayıdış prosesinin uğurla həyata keçirildiyini nümayiş etdirir. İcra başçısı Yeni Azərbaycan Partiyasının tarixi ilə müasir Azərbaycanın inkişaf salnaməsinin sıx bağlı olduğunu qeyd edib.

Milli Məclisin deputatı Rövşən Muradov çıxışında bildirib ki, Yeni Azərbaycan Partiyası bu gün müasir çağırışlara uyğun olaraq fəaliyyət göstərir. Deputat uğurlu gənclər siyasətinin YAP-ın siyasi dinamizminin əsas istiqamətlərindən biri olduğunu qeyd edərək Azərbaycan gənclərinin Heydər Əliyev ideyalarına və Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə böyük dəstək verdiyini vurğulayıb. R.Muradov YAP Laçın rayon təşkilatının keçirdiyi tədbirlərin bir çoxunun azad və abad Laçın şəhərində keçirilməsinin əhəmiyyətini qeyd edib və təşkilatın fəaliyyətini yüksək qiymətləndirib.

Konfransda YAP-ın veteran üzvü Səyyaf Məmiyev, YAP Laçın rayon təşkilatının 4 saylı ərazi partiya təşkilatının sədri, Şərqi Zəngəzur Regional Mədəniyyət İdarəsinin baş məsləhətçisi Türkanə Nuruyeva və Vətən müharibəsi qazisi Cövhər Sadıqzadə də çıxış ediblər. Bildirilib ki, Yeni Azərbaycan Partiyasının fəaliyyəti milli maraqlara əsaslanır. Çıxışçılar YAP Laçın rayon təşkilatının fəaliyyətini yüksək qiymətləndirərək təşkilatın Heydər Əliyev ideyalarının, azərbaycançılıq məfkurəsinin və milli-mənəvi dəyərlərin təbliği, eləcə də partiya üzvlərinin fəallığının artırılması istiqamətində həyata keçirdiyi tədbirlərin əhəmiyyətini vurğulayıblar.

Çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Rəşad Abbaszadə isə Yeni Azərbaycan Partiyasının yaranmasından, əldə etdiyi uğurlardan və qarşıda duran vəzifələrdən bəhs edib. O bildirib ki, Yeni Azərbaycan Partiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə öz inkişafının yeni mərhələsini yaşayır. R.Abbaszadə YAP-ın xalqın sevgisini və etimadını qazandığını, ölkədə ictimai-siyasi sabitliyin və milli həmrəyliyin möhkəmləndirilməsində mühüm rol oynadığını qeyd edib. Natiq YAP Laçın rayon təşkilatının fəaliyyətini müsbət dəyərləndirib.

Sonra Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib.

Konfrans Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

# Xalqımız YAP-ın fəaliyyətini yüksək qiymətləndirir




Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Şəki rayon təşkilatının X konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Şəki rayon təşkilatının sədri Daşqın Mikayılov hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsi həmin dövrün mürəkkəb ictimai-siyasi şəraitində ölkədə yaranmış vəziyyət və qarşıda duran mühüm vəzifələrlə əlaqədar tarixi zərurətdən irəli gəlirdi. Qeyd edilib ki, YAP Azərbaycanın parlaq gələcəyinin formalaşmasında mütərəqqi rol oynayıb. Partiya uğurlu fəaliyyəti ilə ölkəmizdə ictimai-siyasi sabitliyin, milli həmrəyliyin və əmin-amanlığın bərqərar edilməsinə böyük töhfələr verib. 2021-ci il martın 5-də keçirilən YAP-ın VII qurultayından ötən müddət ərzində partiyanın qarşıya qoyduğu məqsəd və vəzifələrin icrası istiqamətində mühüm işlər görülüb.

Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov çıxışında Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasətin ölkənin davamlı inkişafına verdiyi töhfələrdən danışıb. O, Şəki şəhərində həyata keçirilən abadlıq, quruculuq və sosial-iqtisadi layihələr, əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində görülən işlər barədə məlumat verib.

YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, partiyanın ictimai-siyasi nüfuzu və ölkənin tərəqqisində oynadığı roldan bəhs edib. O, Prezident, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlərə toxunaraq, partiya üzvlərinin qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində fəal iştirakının əhəmiyyətini vurğulayıb.

Partiya veteranı Həsən Həsənov, Şəki bələdiyyəsinin sədri Aytac Məcidova, Biləcik ərazi partiya təşkilatının sədri Ramiz Bədiyev, Xan sarayı ərazi partiya təşkilatının sədri Reyhan Məmmədova, Təzə Bazar ərazi partiya təşkilatının sədri Mehman Həmidov və partiya fəalı Sevinc Abdurahmanova Yeni Azərbaycan Partiyası Şəki rayon təşkilatının fəaliyyətinin yeni dövrün tələblərinə uyğun qurulması və qarşıya qoyulan vəzifələrin səmərəli icrası istiqamətində görülən işləri müsbət dəyərləndiriblər.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Xəqani Tağıyev partiyanın Şəki rayon təşkilatının uğurlu fəaliyyəti, ərazi partiya təşkilatlarında işin təşkili və qarşıda duran vəzifələr barədə danışıb. O bildirib ki, partiya fəallarının rolu, ictimai təşəbbüslərin dəstəklənməsi və üzvlərin müxtəlif layihələrdə fəal iştirakı mühüm önəm kəsb edir.

Konfransda YAP Şəki rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII qurultayına nümayəndələr seçilib.

Sonda Yeni Azərbaycan Partiyasının Himni səsləndirilib.

# Yeni Azərbaycan Partiyası davamlı uğurlara imza atır

Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Nərimanov rayon təşkilatının XII konfransı keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstünün önünə gül dəstələri düzülüb.




Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Nərimanov rayon təşkilatının sədri Elçin Quliyev hesabat məruzəsi ilə çıxış edərək rayon təşkilatının fəaliyyəti, qarşıya qoyulan vəzifələrin icrası barədə məlumat verib. O bildirib ki, Yeni Azərbaycan Partiyası bütün mərhələlərdə dövlətçilik xəttinə uyğun fəaliyyət göstərib. E.Quliyevin sözlərinə görə, 2021-ci ildə keçirilən VII qurultay partiyanın müasir çağırışlara uyğun olaraq fəaliyyətinin gücləndirilməsi baxımından mühüm mərhələ olub. Vurğulanıb ki, YAP Nərimanov rayon təşkilatı da bu siyasi kursa öz töhfəsini vermək məqsədilə fəaliyyətini ardıcıl şəkildə gücləndirib. Partiya üzvləri ilə iş, maarifləndirici və sosial layihələr əsas istiqamətlər sırasındadır.



Çıxış edən Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Elgin Həbibullayev bildirib ki, YAP-ın Azərbaycan dövlətçiliyinin inkişafında xidmətləri danılmazdır və partiyanın bu istiqamətdə gördüyü işlər cəmiyyətimiz tərəfindən yüksək qiymətləndirilir: “Buna görədir ki, partiyamızın, o cümlədən YAP-ın Nərimanov rayon təşkilatının sıraları davamlı olaraq genişlənir”.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Hikmət Babaoğlu çıxışında müasir müstəqil Azərbaycanın şanlı siyasi tarixinin mühüm səhifələrindən birini ümumxalq partiyası olan YAP-ın yaradılmasının təşkil etdiyini bildirib. O, həmçinin Yeni Azərbaycan Partiyasının təkcə ölkəmizin deyil, regionun ən nüfuzlu siyasi təşkilatı olduğunu deyib. H.Babaoğlu qeyd edib ki, xalq öz Liderini, Onun Sədri olduğu partiyanı dəstəkləyir, Azərbaycan xalqı Yeni Azərbaycan Partiyasına inanır və onun ətrafında sıx birləşdiyini nümayiş etdirir.

YAP İdarə Heyətinin üzvü Tofiq Cahangirov isə qeyd edib ki, Yeni Azərbaycan Partiyası yarandığı vaxtdan müstəqil Azərbaycanın həyatında mühüm rol oynayıb, ölkənin siyasi, sosial və iqtisadi inkişafına öz töhfəsini verib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı tarixi nailiyyətlər, xüsusilə 44 günlük Vətən müharibəsində əldə edilmiş möhtəşəm Zəfər və 2023-cü ildə keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması xalqımızın milli iradəsinin və dövlətimizin gücünün göstəricisidir.

Çıxış edən Milli Məclisin deputatı Samir Vəliyev bildirib ki, Ümummilli Liderimiz Heydər Əliyevin ideyaları əsasında uğurla fəaliyyət göstərən partiyamız bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə yeni-yeni uğurlara imza atır. Cənubi Qafqazın ən güclü siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının sıralarında bu gün 700 mindən çox üzv birləşib. “Ölkəmizin siyasi həyatında fəal iştirak edən Yeni Azərbaycan Partiyasının gücünü şərtləndirən amillərdən biri də onun monolitliyidir. Bu baxımdan, partiyanın rayon və şəhər təşkilatları, o cümlədən Nərimanov rayon təşkilatı da ictimai-siyasi proseslərdə fəal iştirak edir”, - deyə deputat vurğulayıb.

Çıxış edən Şəhər Bələdiyyələri Milli Assosiasiyasının və Nərimanov Bələdiyyəsinin sədri Təmraz Tağıyev bildirib ki, YAP siyasi mübarizələrlə dolu şərəfli bir yol keçib. Onun sözlərinə görə, iqtidar partiyası olaraq Yeni Azərbaycan Partiyası xalqımızın qarşısında dayanan vəzifələrin həll edilməsinə layiqli töhfəsini verib və bundan sonra da verəcəkdir.

Tədbirdə, həmçinin SOCAR-ın Aparat rəhbəri, ərazi partiya təşkilatının sədri Hafiz Zeynalov, YAP Gənclər Birliyinin üzvü Ülviyyə Axundova və Nərimanov rayon Ağsaqqallar Şurasının sədri, Vətən Müharibəsi Qəhrəmanı, şəhid Azad Hümbətovun atası Arif Hümbətov çıxış edib. Çıxışlarda Yeni Azərbaycan Partiyası Nərimanov rayon təşkilatının hesabat dövründə həyata keçirdiyi fəaliyyət və görülən işlər müsbət qiymətləndirilib.

Konfransda çıxış edən YAP Mərkəzi Aparatının Təşkilat şöbəsi müdirinin müavini Rəfael Gülməmmədov bildirib ki, Ulu Öndər Heydər Əliyevin dediyi kimi, YAP dünənin, bu günün və gələcəyin partiyasıdır. Onun sözlərinə görə, fəaliyyət göstərdiyi illər ərzində Yeni Azərbaycan Partiyası öz Proqram və Nizamnaməsində nəzərdə tutulan vəzifələri layiqincə yerinə yetirib və yetirməkdədir. Bu baxımdan, VII qurultayda qəbul olunmuş qərarlar, partiyamızın Sədri, Prezident İlham Əliyevin qurultayda verdiyi tövsiyə və tapşırıqlar hər bir partiya üzvü üçün yeni vəzifələr müəyyənləşdirib.

Rayon təşkilatının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edilib və YAP-ın VIII Qurultayına nümayəndələr seçilib.

Tədbirin sonunda Yeni Azərbaycan Partiyasının himni səsləndirilib.

# Yeni reallıqlar rifah, inkişaf və qələbələr vəd edir




Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Kəngərli rayon təşkilatının VII konfransı keçirilib.



Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

YAP Kəngərli rayon təşkilatının sədri Sevda Quluyeva hesabat məruzəsi ilə çıxış edib. O bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində ölkəmizin beynəlxalq nüfuzu daha da yüksəlib, regionların sosial-iqtisadi inkişafı sürətlənib, genişmiqyaslı quruculuq və abadlıq işləri həyata keçirilib.

S.Quluyeva qeyd edib ki, hesabat dövrü ərzində YAP Kəngərli rayon təşkilatı qarşıya qoyulan vəzifələrin icrası istiqamətində fəaliyyətini ardıcıl şəkildə davam etdirib.

Konfransda Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Kamal Ələkbərov çıxış edərək Azərbaycanın son illərdə əldə etdiyi mühüm nailiyyətlərdən, ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahat və quruculuq işlərindən bəhs edib. O, Yeni Azərbaycan Partiyasının Azərbaycanın davamlı inkişafının təmin edilməsində, dövlətçilik ənənələrinin möhkəmləndirilməsində və milli maraqların qorunmasında mühüm roluna diqqət çəkib.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov çıxışında Yeni Azərbaycan Partiyasının yaranma tarixindən, keçdiyi şərəfli inkişaf yolundan və Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində əvəzsiz rolundan bəhs edib. O, Ulu Öndər Heydər Əliyevin ideyalarının bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayıb. S.Novruzovun sözlərinə görə, bu gün qalib Azərbaycanın yaratdığı yeni reallıqlar rifah, inkişaf və qələbələr vəd edir.

Konfransda partiya veteranları üzvləri Mənsim Məmmədov və Vəfa Məmmədova, gənc fəal Hacı Məmmədov çıxış edərək Yeni Azərbaycan Partiyasının ölkəmizin ictimai-siyasi həyatında tutduğu mövqedən, Ulu Öndər Heydər Əliyevin ideyalarına sadiqliyin əhəmiyyətindən bəhs ediblər.

Daha sonra YAP Mərkəzi Aparatının Siyasi təhlil, maarifləndirmə və seçkilərlə iş şöbəsi müdirinin müavini Asif İmaməliyev çıxış edərək Yeni Azərbaycan Partiyasının ölkənin inkişafına verdiyi töhfələri diqqətə çatdırıb. A.İmaməliyev vurğulayıb ki, YAP-ın gücü onun geniş sosial bazaya, möhkəm təşkilati struktura və vahid məqsəd ətrafında birləşən üzvlərə malik olması ilə şərtlənir. O, partiyanın bundan sonra da qarşıda duran bütün vəzifələri uğurla yerinə yetirmək əzmində olduğunu bildirib.

Konfransda YAP Kəngərli rayon təşkilatının hesabat dövrü ərzindəki fəaliyyəti qənaətbəxş qiymətləndirilib və Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib.

Tədbir Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

# Ardıcıl nailiyyətlər gələcək inkişafımızın möhkəm təməlidir

Sentyabrın 8-də Yeni Azərbaycan Partiyası (YAP) Siyəzən rayon təşkilatının IX konfransı keçirilib.




Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi ziyarət edilib, abidənin önünə gül dəstələri düzülüb.



Tədbirdə Ulu Öndər Heydər Əliyevin, ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransda YAP Siyəzən rayon təşkilatının sədri Samir Baxşıyev hesabat məruzəsi ilə çıxış edib. Hesabat məruzəsində Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan, Ümummilli Lider Heydər Əliyevin siyasi irsindən, partiyanın ölkənin ictimai-siyasi həyatında tutduğu mühüm mövqedən bəhs olunub. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kurs Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilir.

S.Baxşıyev qeyd edib ki, hesabat dövründə təşkilati işin gücləndirilməsi, partiya üzvlərinin ictimai-siyasi fəallığının artırılması, siyasi maarifləndirmə və ideoloji işin təşkili əsas məsələlər sırasında olub. Həmçinin, rayon təşkilatı tərəfindən müxtəlif ictimai-siyasi və sosial əhəmiyyətli tədbirlər, görüşlər, dəyirmi masalar və maarifləndirici layihələr keçirilib. Şəhid ailələri və qazilərlə mütəmadi görüşlər təşkil olunub, onların qayğı və problemlərinə həssaslıqla yanaşılıb.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı Müşfiq Məmmədli Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatında mühüm və aparıcı rolundan bəhs edib. O, partiyanın Ümummilli Lider Heydər Əliyevin ideyaları əsasında formalaşdığını və bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə öz fəaliyyətini uğurla davam etdirdiyini bildirib. Deputat Azərbaycanın son illərdə əldə etdiyi böyük uğurlara, tarixi Zəfərə və ölkəmizin beynəlxalq nüfuzunun artmasına diqqət çəkib. Onun sözlərinə görə, davamlı uğurlar gələcək inkişafımızın möhkəm təməlidir. M.Məmmədli YAP Siyəzən rayon təşkilatının fəaliyyətini müsbət qiymətləndirərək təşkilata gələcək fəaliyyətində uğurlar arzulayıb.

YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Orxan Bayramov çıxışında Yeni Azərbaycan Partiyasının Siyəzən rayon təşkilatının hesabat dövründə həyata keçirdiyi işlərin əhəmiyyətini vurğulayıb. O.Bayramov qarşıdakı dövrdə təşkilati fəaliyyətin daha da gücləndirilməsi, partiya üzvlərinin fəallığının artırılması və gənclərlə işin genişləndirilməsinin vacibliyini bildirib.

Çıxış edən Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov da Yeni Azərbaycan Partiyasının ölkənin ictimai-siyasi həyatındakı rolundan danışıb. O, Azərbaycanın əldə etdiyi tarixi nailiyyətlərdən, ölkədə aparılan genişmiqyaslı quruculuq və abadlıq işlərindən, regionların sosial-iqtisadi inkişafından bəhs edib. N.Novruzov YAP Siyəzən rayon təşkilatının rayonun ictimai həyatında fəal iştirak etdiyini bildirərək, təşkilatın gələcək fəaliyyətinə uğurlar arzulayıb.

Çıxışlardan sonra Yeni Azərbaycan Partiyasının VIII Qurultayına nümayəndələr seçilib.

Konfrans Yeni Azərbaycan Partiyasının himninin səsləndirilməsi ilə başa çatıb.

# BTQ: Fransa Dənizaşırı ərazilərə səfər üçün viza qaydalarını sərtləşdirir




Fransa hökuməti ölkənin Dənizaşırı ərazilərinə səfər etmək istəyən əcnəbilər üçün viza və giriş qaydalarını sərtləşdirir.

Bu barədə Bakı Təşəbbüs Qrupunun bəyanatında bildirilib.

Bəyanatda qeyd olunub ki, Fransanın materik hissəsində tətbiq edilən Şengen viza rejimindən fərqli olaraq, Dənizaşırı ərazilərə giriş üçün ayrıca viza və inzibati prosedurlar mövcuddur. Fransa qanunvericiliyinə əsasən, Avropadan kənarda yerləşən Qvadelup, Martinik, Fransız Qvianası, Reyunyon, Mayot, Kanaki (Yeni Kaledoniya), Maohi Nui (Fransız Polineziyası), Uollis və Futuna Şengen zonasının tərkibinə daxil deyil. Bu səbəbdən Şengen vizasına malik olmaq bir qayda olaraq, həmin ərazilərə giriş üçün kifayət etmir. Viza tələb olunan əcnəbilər Dənizaşırı ərazilərə səfər etmək üçün ayrıca viza almalıdırlar.

Bakı Təşəbbüs Qrupunun bəyanatında vurğulanır ki, Fransanın Dənizaşırı ərazilərdə tətbiq etdiyi əlavə viza və giriş prosedurları yerli xalqların nümayəndələrinin, media mənsublarının, tədqiqatçıların, hüquq müdafiəçilərinin və digər beynəlxalq iştirakçıların həmin ərazilərə səfər imkanlarını məhdudlaşdırır.

Bəyanatda bildirilir ki, bu məhdudiyyətlər Dənizaşırı ərazilərdə yaşayan xalqların üzləşdiyi problemlərin, eləcə də müstəmləkəçilik siyasətinin tarixi və bu günədək davam edən nəticələrinin beynəlxalq ictimaiyyətə çatdırılmasını çətinləşdirə bilər.

BTQ hesab edir ki, Fransa bir tərəfdən Dənizaşırı əraziləri dövlət ərazisinin tərkib hissəsi kimi təqdim edir, digər tərəfdən isə həmin ərazilərə giriş-çıxış və hərəkət üçün ayrıca hüquqi və inzibati rejim tətbiq edir. Bu yanaşma materik Fransa ilə Dənizaşırı ərazilər arasında inzibati fərqliliklərin yaranmasına səbəb olur.

Bəyanatda, həmçinin qeyd olunur ki, əlavə viza və giriş prosedurları turistlərin, investorların, sahibkarların, tədqiqatçıların və digər xarici iqtisadi və ictimai aktorların Dənizaşırı ərazilərə çıxışını çətinləşdirir. Bunun turizm gəlirlərinin, investisiya axınlarının, biznes əlaqələrinin və regional iqtisadi əməkdaşlığın inkişafına mənfi təsir göstərə biləcəyi vurğulanır.

BTQ-nin qiymətləndirməsinə görə, sözügedən məhdudiyyətlər xüsusilə kiçik və coğrafi baxımdan təcrid olunmuş iqtisadiyyatların xarici bazarlara çıxış imkanlarını zəiflədə və onların regional iqtisadi inteqrasiyasını məhdudlaşdıra bilər.

Bəyanatda, həmçinin bildirilir ki, Karib, Sakit okean və Hind okeanı regionlarında yerləşən Fransanın Dənizaşırı əraziləri bu səbəbdən coğrafi qonşuları ilə iqtisadi və ticarət əlaqələrini dərinləşdirməkdə çətinliklərlə üzləşir. Eyni zamanda, onların materik Fransadan maliyyə, ticarət və institusional asılılığının daha da güclənməsi riski qeyd olunur.

Bakı Təşəbbüs Qrupu Fransa hökumətinin onun əməkdaşlarına, eləcə də Qrupun xətti ilə Dənizaşırı ərazilərə səfər etmək istəyən şəxslərə viza verməkdən imtina etdiyini bildirir. BTQ hesab edir ki, viza məhdudiyyətləri Dənizaşırı ərazilərlə bağlı beynəlxalq əlaqələrin, məlumat mübadiləsinin və ictimai diplomatiyanın inkişafına əlavə maneələr yaradır.

# Moskvada və Kiyevdə aparılan danışıqlar: Sülh yaxındadır, yoxsa uzaqda?

İndiyədək artıq 5 ildir ki, davam edən və bütün dünyanın təsirləndiyi Rusiya-Ukrayna müharibəsinin danışıqlar yolu ilə başa çatdırılmasına qardaş Türkiyə də daxil olmaqla, vasitəçilər tərəfindən çoxsaylı cəhdlər göstərilib. O cümlədən Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın təşəbbüsü ilə bu məqsədlə ayrı-ayrı məkanlarda baş tutan bir neçə görüş nəticə verməyib.

Bütün bunlara baxmayaraq, Vaşinqton bu günlərdə müharibənin dayandırılmasını və tərəflər arasında sülh əldə olunmasını hədəfləyən yeni diplomatik təşəbbüslə çıxış edib. Bu təşəbbüsə uyğun olaraq D. Trampın xüsusi elçiləri Stiv Uitkoff və Cared Kuşner Rusiya-Ukrayna müharibəsinin nizamlanması üçün Rusiyaya və Ukraynaya səfərlər həyata keçiriblər. Onlar əvvəlcə sentyabrın 5-də Moskvada Rusiya Prezidenti Vladimir Putinlə, ertəsi gün isə Kiyevdə Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüblər.

Görüşlərin geniş təfərrüatları açıqlanmasa da, mətbuata müəyyən detallar məlum olub və artıq tərəflər müzakirələrlə bağlı öz mövqelərini açıqlayıblar. Beləliklə, sual yaranır: Moskvada və Kiyevdə baş tutan görüşlər və yaxud Vaşinqtonun yeni vasitəçilik təşəbbüsü müharibənin sonuclanmasına gətirib çıxaracaqmı? Sülh yaxındadır, yoxsa uzaqda? Təəssüf ki, hələlik bu suallara birmənalı şəkildə optimist ruhda cavab vermək mümkün deyil. Tərəflərin açıqlamalarından məlum olur ki, hələ sülhə doğru uzun yol qət etmək lazımdır.

## ABŞ-ın nizamlama ilə bağlı 7 bəndlik yeni yol xəritəsi

ABŞ-ın budəfəki diplomatik təşəbbüsü çərçivəsində nizamlama ilə bağlı yeni 7 bəndlik həll planı hazırladığı məlum olub. Belə ki, Ukrayna və xarici mediada Donald Trampın Rusiya-Ukrayna müharibəsinin dayandırılması üçün nəzərdə tutulan yeni sülh planının detalları yayılıb. Analitiklərin "ABŞ-ın Rusiya-Ukrayna müharibəsinin bitirilməsinin yeni yol xəritəsi" adlandırdıqları həmin sənəd aşağıdakı şərtləri özündə ehtiva edir:

1. Tam atəşkəs. Rusiya və Ukrayna arasında döyüşlərin dayandırılması və tam atəşkəsin qüvvəyə minməsi nəzərdə tutulur.

2. Ukrayna ordusunun geri çəkilməsi. Ukrayna Silahlı Qüvvələrinin Donbasın müəyyən hissəsindən geri çəkilməsi təklif olunur. Rusiya qüvvələrinin də həmin zonaya daxil olmaması, tərəflər arasında BMT kontingentinin nəzarətində bufer zonasının yaradılması nəzərdə tutulur. Zaporojye vilayətinin bir hissəsində də oxşar mexanizmin tətbiqi və Ukrayna yurisdiksiyasının saxlanılması variantı göstərilir.

3. Seçkilər və referendum. Ukraynada referendum və seçkilərin keçirilməsi planın əsas siyasi bəndlərindən biri kimi təqdim olunur. Bundan sonra ölkədə Konstitusiya dəyişikliklərinin həyata keçirilməsi nəzərdə tutulur.

4. Ərazilərin hərbi yolla qaytarılmasından imtina. Yeni Ukrayna hakimiyyətinin Konstitusiyaya dəyişiklik edərək Rusiyanın nəzarətinə keçəcək ərazilərin güc yolu ilə geri qaytarılmasından imtinanı təsbit etməsi təklif olunur.

5. NATO-dan imtina. Ukraynanın bloklara qoşulmayan statusunun rəsmiləşdirilməsi, NATO-ya və digər hərbi ittifaqlara üzvlükdən imtina etməsi nəzərdə tutulur.

6. Ukrayna ordusuna məhdudiyyət. Planla bağlı yayılan məlumatlarda Ukrayna Silahlı Qüvvələrinin sayına məhdudiyyət qoyulmasının da nəzərdə tutulduğu bildirilir. Eyni zamanda dil məsələsi üzrə müəyyən razılaşmalardan da bəhs olunur.

7. Yeni hakimiyyət Rusiya ilə sülh müqaviləsi imzalayacaq. Seçkilərdən sonra formalaşacaq yeni Ukrayna hakimiyyətinin Rusiya ilə tamhüquqlu sülh müqaviləsi imzalaması, daha sonra isə sənədin BMT-nin iştirakı ilə xüsusi prosedur çərçivəsində təsbit edilməsi nəzərdə tutulur.

Müqayisə apardıqda məlum olur ki, əvvəlki həll planları ilə yeni yol xəritəsinin məzmununda oxşarlıqlar çoxdur. Daha əvvəl də Ukraynaya ərazi güzəştləri, NATO üzvlüyündən imtina və ordunun sayının məhdudlaşdırılması kimi şərtləri ehtiva edən sülh variantları təqdim edilmişdi. Lakin rəsmi Kiyev həmin təklifləri məqbul saymadı və müharibənin davam etdirilməsi variantı qüvvədə qaldı. Bu dəfə də Ukraynaya eyni ağır şərtlər təklif olunur. Kiyev buna razılaşacaqmı?



## Kremldə görüş, Moskvanın 4 şərti

Sentyabrın 5-də Kremldə baş tutan görüşlə bağlı diqqətçəkən məqamlardan biri ondan ibarətdir ki, ABŞ-ın elçiləri Moskvada tanış qonaqlar kimi qarşılanıb. Cared Kuşner münaqişənin nizamlanması ilə bağlı müzakirələrə üçüncü dəfə qoşulub. Stiv Uitkoff isə Rusiya Prezidenti ilə səkkizinci dəfə görüşüb. Kremldə aparılan müzakirələrdə Rusiya tərəfdən Prezidentin beynəlxalq məsələlər üzrə köməkçisi Yuri Uşakov və xüsusi nümayəndəsi Kirill Dmitriyev də iştirak ediblər. "Axios"un məlumatına görə, Moskvadakı danışıqlara Vaşinqton tərəfindən həmçinin ABŞ Milli Təhlükəsizlik Şurasının, Dövlət Departamentinin və Maliyyə Nazirliyinin nümayəndələri də qatılıblar.

Kremldə müzakirələr 3 saat davam edib. Vladimir Putin görüşün mətbuat üçün açıq olan hissəsində ABŞ Prezidentinin müharibənin həllinə töhfə vermək səylərini təqdir edib. Lakin Rusiya Prezidenti hazırkı vəziyyətin çətinliyinə də diqqət çəkib.

Müzakirələrdən sonra Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov görüşün məzmunlu və konstruktiv keçdiyini bildirib. Kreml rəsmisi vurğulayıb ki, son dərəcə ciddi məsələlər üzrə müzakirə həm masa arxasında, həm də şam yeməyi zamanı qeyri-rəsmi şəraitdə davam edib. "Müzakirələr yalnız Ukrayna ilə məhdudlaşmadı. Potensial Rusiya-Amerika layihələri barədə də danışıqlar aparıldı", - deyə o əlavə edib. Ancaq Yuri Uşakov nəyin razılaşdırılıb-razılaşdırılmadığı barədə konkret məlumat verməyib. Kreml rəsmisi həmçinin Moskvanın döyüş meydanındakı vəziyyətə "aydın və əhatəli qiymətlər" verdiyini, müharibənin bütün əsas səbəblərinin aradan qaldırılmasının vacibliyini xüsusi vurğulayıb.

Kremlin sözçüsü Dmitri Peskov isə Moskvada baş tutan görüşü nizamlama yolunda "kiçik bir addım" kimi səciyyələndirib. O, "ABŞ nümayəndələrinin Moskva və Kiyevdə keçirdiyi görüşlərin münaqişənin həllinə yaxınlaşdırıb-yaxınlaşdırmadığı" sualını cavablandırarkən bildirib ki, sülhə yönəlmiş istənilən effektiv cəhd tərəfləri nizamlanmaya doğru bir addım yaxınlaşdırır.

Kreml rəsmisi ABŞ nümayəndələrinin səylərinə müsbət münasibətini diqqətə çatdıraraq Rusiya Prezidentinin də Donald Trampın sülh istiqamətindəki mövqeyini və səylərini yüksək qiymətləndirdiyini qeyd edib.

Eyni zamanda, Rusiyadan gələn mesajlardan bəlli olur ki, Moskva maksimalist mövqeyindən geri çəkilməyib. Ekspertlər bəhs olunan görüşlər ərəfəsində Rusiyanın Ukraynaya hücumların intensivliyini artırmasını da Moskvanın masada əlini gücləndirməyə hesablandığını bildirirlər. Kreml təzyiqləri artırmaqla müharibəni bitirmək üçün dörd şərtini qəbul etdirmək istəyir. Həmin şərtlər aşağıdakılardır:

1. Ukrayna qoşunlarının tam geri çəkilməsi: Ukrayna ordusu Rusiyanın öz ərazisi elan etdiyi 4 regiondan - Donetsk, Luqansk, Xerson və Zaporojye vilayətlərindən (hazırda Ukraynanın nəzarətində olan hissələr də daxil olmaqla) tamamilə çıxmalıdır.

2. NATO-ya üzvlükdən rəsmən imtina: Ukrayna Şimali Atlantika Alyansına (NATO) qoşulmaq iddialarından və planlarından rəsmən və birdəfəlik imtina etməlidir.

3. Neytral və nüvəsiz status: Ukraynanın bitərəf, hərbi bloklara qoşulmayan (neytral) və nüvə silahına malik olmayan bir dövlət statusu beynəlxalq səviyyədə təsbit edilməlidir.

4. Qərbin sanksiyalarının ləğvi: Müharibənin tamamilə bitməsi və yekun sülh sazişinin imzalanması üçün Qərb dövlətləri Rusiyaya qarşı tətbiq etdiyi bütün beynəlxalq sanksiyaları tamamilə ləğv etməlidir.

Göründüyü kimi, Moskvanın yenilənmiş şərtləri hətta Vaşinqtonun yuxarıda bəhs etdiyimiz "yol xəritəsi"ndən daha sərtdir. Bu isə, təbii ki, ziddiyyətləri daha da dərinləşdirir.

## Üçtərəfli görüş gündəmdə olsa da...

Moskvada və Kiyevdə aparılan müzakirələr çərçivəsində danışıqların üçtərəfli formatda davam etdirilməsi məsələsi gün-



dəmə gətirilib. Stiv Uitkoff və Cared Kuşner Kiyevdə rəsmilərlə görüşdükdən sonra üçtərəfli danışıqların Rusiya-Ukrayna müharibəsinin "yaxşı həlli" ilə nəticələnəcəyinə əminliklərini bildiriblər.

Ukrayna ABŞ və Rusiyanın iştirakı ilə üçtərəfli görüşlərin keçirilməsinin tərəfdarıdır. Bununla belə, Kiyev Avropadakı tərəfdaşlarının da danışıqlara cəlb edilməsini zəruri sayır. Əslində, nizamlama prosesinin genişləndirilmiş formata keçirilməsi daha məqbul variantdır. Çünki Rusiya-Ukrayna müharibəsi artıq iki dövlət arasında qarşıdurma çərçivəsindən kənara çıxıb. Bu, həm də Avropa məsələsidir. Avropa İttifaqı Ukraynaya güclü maddi-texniki-hərbi dəstək verir, eyni zamanda, Rusiyanın müharibəni davam etdirmək imkanlarını zəiflətmək üçün bu ölkəyə qarşı sanksiyaların əhatə dairəsini genişləndirir. Buna görə də Aİ özünü nizamlama prosesindən kənarda təsəvvür etmir. Avropa İttifaqının danışıqlar prosesində təmsilçiliyinə israr etməsi həm də qoca qitənin gələcək təhlükəsizliyinə təminatlar almaqdır.

Eyni zamanda, Rusiyanın da üçtərəfli formatda nəzərdə tutulan danışıqlara qoşulacağı ilə bağlı ehtimallar var. ABŞ nümayəndələri Fransa tərəfinə bildiriblər ki, Moskva Rusiyada keçiriləcək parlament seçkilərindən sonra danışıqların bərpasına hazır ola bilər. "Le Monde"nin məlumatına görə, Fransa prezidentinin administrasiyasının nümayəndəsi bildirib ki, ABŞ tərəfi bazar günü keçirilən görüşdə Rusiyada Dövlət Dumasına seçkilərdən sonra Moskvanın danışıqlara münasibətində yeni hazırlığın yarana biləcəyini deyib. "Amerikalılar bizə Rusiyanın Dövlət Dumasına seçkilərdən sonra danışıqlar prosesinin yeni mərhələsinə hazırlaşmalı olduğumuzu bildirdilər", - Yelisey Sarayının nümayəndəsi vurğulayıb.

Qeyd edək ki, Rusiyada Dövlət Dumasına seçkilərin 18-20 sentyabr tarixlərində keçirilməsi planlaşdırılır. Bununla yanaşı, Kremlin sözçüsü Dmitri Peskov ABŞ, Rusiya və Ukrayna arasında sülh danışıqlarının bərpasının istisna edilmədiyini bildirib. Bununla belə , o, konkret tarix və formatın hələ müəyyənləşdirilmədiyini vurğulayıb.

Təsvir olunanlar Rusiya-Ukrayna müharibəsinin yaratdığı bütün ziddiyyətləri göz önündə canlandırır. Düyün nöqtəsi Rusiyanın maksimalist şərtlərinin Ukrayna tərəfindən birmənalı şəkildə rədd edilməsindədir. Buna görə də tərəflər sahədə hələlik bir-birini taqətdənsalma taktikasının miqyasını genişləndirməyə çalışırlar. ABŞ-dan gələn diplomatik səylər fonunda raket və dron zərbələrinin miqyasının genişlənməsi təzadlı mənzərə yaratmaqla müharibənin tezliklə sonuclanacağına olan ümidləri puç edir. Moskvada və Kiyevdə aparılan müzakirələri diqqət mərkəzində saxlayan və bununla bağlı silsilə materiallar dərc edən nüfuzlu "The New York Times" nəşri maraqlı müqayisə aparıb. "Amerikalılar Kiyevə ukraynalıların "Sülh Ekspresi" adlandırdıqları qatarla gəldilər. Lakin Rusiya ilə müharibəyə son qoymaq prosesində heç bir sürətli və birbaşa addım yoxdur, bunun yaxın vaxtlarda dəyişəcəyinə dair heç bir əlamət görünmür", - deyə qəzet yazıb.

## Kiyev "kapitulyasiya" adlandırdığı şərtləri qəbul edəcəkmi?

Moskvadan sonra Uitkoff və Kuşner danışıqları Kiyevdə davam etdiriblər. Hava məkanının təhlükəsizliyi səbəbindən qonaqların Ukrayna paytaxtına qatarla təşrif gətirmələri diqqətçəkən məqamdır və vəziyyətin nə qədər gərgin olduğunu bütün cəhətləri ilə ortaya qoyur. İş o yerdədir ki, hətta kritik müzakirələr ərəfəsində də Ukrayna səmasında uçuşlar təhlükəsiz deyil.

Kiyevdə aparılan müzakirələrlə bağlı mühüm məqamlardan biri də burada ABŞ təmsilçiləri Stiv Uitkoff, Cared Kuşner və Ukrayna Prezidenti Volodimir Zelenski arasında baş tutan danışıqlara Fransa, Böyük Britaniya və Almaniya liderlərinin xarici siyasət və təhlükəsizlik üzrə müşavirlərinin də qoşulmaları olub. Onlarla danışıqlar ayrıca raundda keçirilib. Bu, ondan xəbər verir ki, müharibədə Ukraynaya hərtərəfli dəstək verən Avropa İttifaqı (Aİ) tənzimləmə prosesindən kənarda qalmaq istəmir. Təsadüfi deyildir ki, müzakirələrdə yaxın gələcəkdə Ukrayna, Avropa və ABŞ-ın iştirakı ilə növbəti birgə görüşün keçirilməsi razılaşdırılıb.

Əsas sual isə Ukraynanın "kapitulyasiya" adlandırdığı şərtləri qəbul edib-etməməsi ilə bağlıdır. Volodimir Zelenskinin görüşdən sonra ABŞ nümayəndə heyəti ilə birlikdə keçirdiyi mətbuat konfransında ifadə etdiyi fikirləri bu suala cavab kimi dəyərləndirmək mümkündür. O, Rusiya-Ukrayna müharibəsini bitirmək üçün diplomatik addımların atıla biləcəyi hər hansı bir formatda danışıqların bərpasını mühüm addım kimi qiymətləndirib. O, buna görə ABŞ Prezidentinə və onun elçilərinə təşəkkür edib.

Bununla belə, dövlət başçısı ərazi bütövlüyü məsələsinin aktual olaraq qaldığını və belə mürəkkəb mövzuların yalnız liderlər səviyyəsində həll edilə biləcəyini vurğulayıb.

Görüşdə təhlükəsizlik zəmanətləri ilə yanaşı, Ukraynanın müharibədən sonrakı bərpası, yenidən qurulması və iqtisadi təminatları müzakirə edilib. Zelenski qeyd edib ki, ölkənin gələcəyi üçün güclü ordu əsas təhlükəsizlik zəmanətidir və bunun üçün resurslar lazımdır.

V.Zelenski müharibənin qışa qədər davam edəcəyinə eyham vurub. O, belə olduğu təqdirdə, Ukraynanın hava hücumundan müdafiə və enerji sahələrində dəstəyə ehtiyacının olduğunu bildirib.

Uitkoff isə öz növbəsində keçirilən müzakirələrə istinad edərək, danışıqları aparanların Moskvada çox irəliləyiş əldə etdiklərini diqqətə çatdırıb. Diplomat məsələ ilə bağlı yaxşı həll yolunun tapılacağına əminliyini ifadə edib. Mətbuat konfransında çıxış edən Cared Kuşner təfərrüatları açıqlamasa da, özünün və səfər yoldaşının "səfərdən çox şey öyrəndiyini" söyləyib.

*Mübariz FEYİZLİ*

# BMT Baş Assambleyasının 81-ci sessiyası öz işinə başlayıb



Dünən BMT Baş Assambleyasının 81-ci növbəti sessiyası təşkilatın Nyu-Yorkdakı qərargahında öz işinə başlayıb.

Açılışda BMT-nin Baş katibi Antonio Quterreş və yeni sessiyanın prezidenti, Banqladeş nümayəndəsi Xəlilur Rəhmanın çıxışları olub. Sentyabrın 22-də yüksək səviyyəli həftə çərçivəsində keçiriləcək ümumi müzakirələr zamanı dövlət və hökumət başçıları çıxış edəcəklər. Tədbirdə 100-dən çox dövlət və 46 hökumət başçısı, həmçinin nazirlər və səfirlər daxil olmaqla geniş nümayəndə heyətlərinin iştirakı gözlənilir.

Dünya liderlərinin iştirakı ilə Baş Assambleya bir sıra yüksək səviyyəli görüşlər də keçirəcək.

Bunlar İnkişaf hüququ haqqında Bəyannamənin qəbul edilməsinin 40-cı ildönümünə həsr olunmuş iclası, iqlim fəaliyyəti və ədalətli keçidlə bağlı görüş, dəniz səviyyəsinin yüksəlməsinin yaratdığı mövcudluq təhdidlərinə həsr olunmuş iclas, eləcə də pandemiyaların qarşısının alınması, hazırlıq və cavab tədbirlərinə dair görüş olacaq. Bundan əlavə, Nüvə Silahlarının Tamamilə Ləğv Edilməsi üzrə Beynəlxalq Günün qeyd edilməsi və təşviqinə həsr olunmuş yüksək səviyyəli plenar iclas təşkil olunacaq.

Sessiya 2027-ci il sentyabrın 7-dək davam edəcək. Onun açılış ayının əsas tədbiri ənənəvi olaraq dövlət və hökumət başçılarının, eləcə də xarici işlər nazirlərinin iştirak etdiyi yüksək səviyyəli ümumi müzakirələr olacaq. Sessiya beynəlxalq münaqişələrin davam etdiyi, BMT-nin maliyyə çətinlikləri ilə üzləşdiyi və təşkilatın islahatı istiqamətində səylərin göstərildiyi bir dövrə təsadüf edir.

Qarşıdakı ilin əsas hadisələrindən biri yeni baş katibin seçilməsi olacaq. 2017-ci ildən BMT-yə rəhbərlik edən Antonio Quterreşin səlahiyyət müddəti 2026-cı il dekabrın 31-də başa çatacaq. Ümumi müzakirələr sentyabrın 22-26-da və sentyabrın 28-də keçiriləcək.

# Angela Merkel AfD ilə mübarizədə yeni siyasi yanaşmaya çağırıb

Almaniyanın sabiq Kansleri, 2005-2021-ci illərdə ölkəyə rəhbərlik etmiş Angela Merkel ifrat sağçı Almaniya üçün Alternativ (AfD) partiyasının Saksoniya-Anhalt əyalətindəki seçkilərdə qazandığı qələbənin ölkənin siyasi həyatında ciddi dəyişiklikdən xəbər verdiyini bildirib.

AZƏRTAC "Handelsblatt" nəşrinə istinadla xəbər verir ki, sabiq Kansler AfD-nin yüksəlişi fonunda ənənəvi partiyaların siyasi mübarizə üsullarını yenidən nəzərdən keçirməli olduğunu vurğulayıb.

A.Merkel Saksoniya-Anhalt seçkilərində AfD-nin 43,8 faiz səslə birinci, Xristian Demokratlar Birliyinin (CDU) isə 17,2 faiz səslə ikinci olmasına münasibət bildirərkən deyib: "CDU üzvü kimi mənim ürəyim ağrıyır". Onun sözlərinə görə, AfD-nin bu nəticəsi Almaniya Federativ Respublikasının tarixində ciddi dönüş nöqtəsidir.

Keçmiş Kanslerin açıqlamasında diqqət çəkən məqamlardan biri CDU-nun AfD-dən siyasi məsafə saxlamaq üçün tətbiq etdiyi "Yanğın divarı" (Brandmauer) strategiyasına münasibəti olub. A.Merkel bildirib ki, yalnız AfD-dən təcrid olunmaqla seçiciləri inandırmaq mümkün deyil. "İnsanları inandıran bu deyil. Mən bu ölkə üçün nə istədiyimi deməliyəm", - deyə o vurğulayıb.

Yetmiş bir yaşlı sabiq Kanslerin fikrincə, digər partiyalar AfD-yə həddindən artıq fokuslanmaq əvəzinə, seçicilərə konkret siyasi məqsədlər və alternativlər təqdim etməlidirlər. O, xüsusilə pensiya siyasəti kimi məsələlərdə aydın mövqe ortaya qoymağın vacibliyini qeyd edib.

A.Merkel AfD-nin sosial şəbəkələrdə emosional mesajlardan istifadə etməsinin də bu partiyaya üstünlük qazandırdığını bildirib. Onun sözlərinə görə, siyasətçilər üçün əsas problem artıq cəmiyyətdə vahid informasiya bazasının olmamasıdır. O bildirib ki, seçicilər fərdiləşdirilmiş ünsiyyətə daha güclü reaksiya verirlər və AfD bundan faydalanır.



Xatırladaq ki, 15 siyasi partiyanın qatıldığı seçkilərdə AfD 43,8 faiz səslə qələbə qazanaraq əyalət parlamentindəki 83 deputat mandatından 39-na sahib olub. Kansler Mertsin partiyası - CDU 17,2 faizlə ikinci olub. Sosial Demokratlar Partiyası (SPD) 9,3, Yaşıllar Partiyası 8,9, Sol Partiya 8,6 faiz səs toplayıb. Sahra Vaqenknext İttifaqı (BSW) 5,3 faiz səs yığa bilib. İndiyədək əyalət hökumətində təmsil olunan Azad Demokratlar Partiyası (FDP) isə 2,6 faiz səslə əyalət parlamentinə daxil olmaq üçün tələb olunan həddi keçə bilməyib.

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Silahdan daha güclü

## Təhsil qorunursa, gələcək qorunur...

Təhsil yalnız məktəb divarları arasında öyrənilən biliklərdən ibarət deyil. O, insanın gələcəyə açılan qapısı, cəmiyyətin inkişafının əsas dayağı və sülhün ən güclü vasitələrindən biridir. Lakin dünyanın müxtəlif bölgələrində uşaqlar və müəllimlər münaqişələrin, silahlı hücumların və zorakılığın qurbanına çevrilir.

Dünyada milyonlarla uşaq zorakı münaqişələr səbəbindən məktəbə gedə bilmir, təhsildən məhrum qalır. Bu isə yalnız onların gələcəyini məhv etmir, həm də bütün cəmiyyətlərin tərəqqisini ləngidir. Təhsil olmadan inkişaf, bərabərlik və sabitlik mümkün deyil. Halbuki hər bir uşaq, hər bir gənc bərabər şəkildə təhsil almaq hüququna malikdir.

Sentyabrın 9-u Təhsilin Hücumdan Beynəlxalq Müdafiəsi Günü məhz bu səbəbdən təsis olunub. Xatırladaq ki, bu əlamətdar gün BMT Baş Assambleyasının 2020-ci il mayın 28-də qəbul etdiyi 74/275 saylı qətnaməyə uyğun olaraq təsis edilib. Həmin qətnaməni Qətər Dövləti təqdim edib və 62 ölkə tərəfindən dəstəklənib.

Bu günün mesajı aydındır: təhsil təhlükəsiz olmalıdır, hər bir məktəb sığınacaq olmalıdır, hər bir müəllim və şagird qorunmalıdır. Dövlətlər, beynəlxalq təşkilatlar və ictimaiyyət birlikdə çalışmalıdır ki, təhsil hər yerdə, hər zaman müdafiə olunsun. Məktəblər, universitetlər, kitabxanalar - müharibənin, terrorun və zorakılığın hədəfi deyil, bilik və inkişaf mərkəzi olmalıdır.

### Müharibənin ən ağır izlərindən biri

BMT-nin məlumatlarına görə, 2023-cü ilin sonuna qədər dünyada 47,2 milyon uşaq müharibə və zorakılıq səbəbindən evlərini tərk edib və təhsildən məhrum qalıb. Dünyanın müxtəlif bölgələrində uşaqların təhsildən yayınma halları fərqli səviyyələrdədir. Məsələn, Sudan, Qəzza, Nigeriya, Əfqanıstan və Suriya kimi ölkələrdə müharibə və zorakılıq səbəbindən milyonlarla uşaq məktəbə gedə bilmir. Bu, yalnız onların gələcəyini deyil, həm də cəmiyyətlərin inkişafını təhlükə altına alır.

Ölkəmizdə də zaman-zaman təhsil münaqişələrin mənfi təsirinə məruz qalıb. Birinci Qarabağ müharibəsi dövründə Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal olundu. Bir milyona yaxın vətəndaşımız öz doğma torpaqlarından didərgin düşdü. Lakin dövlətimiz məcburi köçkünlər üçün salınan qəsəbələrdə məktəblər də inşa etdi. Ötən dövr ərzində məcburi köçkün uşaqları doğma torpaqlarından kənarda olsalar da, təhsillərini yüksək səviyyədə davam etdirdilər. Köçkün məktəblərini bitirən gənclərimiz ölkəmizdə və xaricdə ali təhsil alaraq respublikamızın inkişafına töhfə verirlər.

Xatırladaq ki, 30 ilə yaxın davam etmiş işğal dövründə Azərbaycan ərazilərində 1107 təhsil müəssisəsi və 855 uşaq bağçası tamamilə məhv edilib. Eləcə də 2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin atəşi nəticəsində Azərbaycanın Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarında bir çox məktəb ciddi ziyan görüb, Ağdam rayonunun Sarıcalı kəndində 220 şagirdin təhsil aldığı orta məktəb məhv edilib.

İkinci Qarabağ müharibəsi də təhsilimizə təsirsiz ötüşmədi. Bu müharibə 10 şagirdin həyatına son qoydu, 20 təhsil işçisi döyüşlərdə qəhrəmanlıq göstərərək şəhidlik zirvəsinə ucaldı. Məktəb infrastrukturuna ciddi ziyan dəydi - 60 məktəb binası dağıntılara məruz qaldı. Cəbhə xəttindən xeyli uzaqda yerləşən mülki obyektlərin raket atəşinə tutulması tədrisin davam etdirilməsini mümkünsüz etdi. Düşmənin mülki əhaliyə hücumları nəzərə alınaraq ölkə ərazisində 1221 məktəbin fəaliyyəti dayandırıldı.

### Qarabağda yeni məktəblər, yeni ümidlər...



Müharibədə Qələbə qazanan Azərbaycan işğaldan azad olunmuş ərazilərimizdə quruculuq işləri həyata keçirir. Bu ərazilərdə müasir standartlara cavab verən təhsil infrastrukturu da qurulur. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində builki tədris ilində də Şuşa, Ağdam, Cəbrayıl, Zəngilan, Kəlbəcər, Qubadlı, Füzuli şəhərlərində, Laçın rayonunun Zabux kəndində təhsil müəssisələrinin tikintisi ilə bağlı müvafiq işlər görülməkdədir. Bu yanaşma bir həqiqəti göstərir: məktəb tikmək yalnız bina inşa etmək deyil, gələcəyə yol çəkməkdir. Hər yeni sinif otağı, hər açılan məktəb qapısı və hər uşağın əlinə verilən kitab cəmiyyətin sabahına qoyulan sərmayədir.

Təhsildən yayınmanın qarşısının alınması üçün beynəlxalq əməkdaşlıq, humanitar dəstək və təhsil infrastrukturunun gücləndirilməsi vacibdir. Eyni zamanda, münaqişə bölgələrində təhsil müəssisələrinin qorunması və uşaqların təhlükəsiz təhsil alması üçün beynəlxalq hüquq və standartlara riayət olunmalıdır. Çünki təhsil yalnız bilik deyil, həm də gələcəyin təminatıdır. Uşaqların təhsildən məhrum olması yalnız onların deyil, bütün cəmiyyətin inkişafını ləngidir. Bu səbəbdən, təhsilin qorunması və inkişafı hər birimizin məsuliyyətidir.

*Yeganə BAYRAMOVA*

# Gözəllik uğrunda dəyişən meyarlar...

Tarix boyu gözəllik anlayışı müxtəlif xalqlarda və dövrlərdə fərqli şəkildə qiymətləndirilib. Bir zamanlar müəyyən fiziki xüsusiyyətlər gözəllik meyarı hesab edildiyi halda, bu gün dünyada gözəlliyin daha çox fərdilik, təbiilik və özünəməxsusluqla əlaqələndirilməsi ön plana çıxır. Müasir dövrdə insanın öz görünüşünü qəbul etməsi, sağlam həyat tərzinə üstünlük verməsi və özünə qayğı göstərməsi gözəlliyin mühüm komponentləri sırasında yer alır.

Hər il sentyabrın 9-u dünyada Beynəlxalq Gözəllik Günü kimi qeyd olunur. Bu bayram ilk dəfə 1995-ci ildə Beynəlxalq Estetika və Kosmetologiya Komitəsi (SİDESKO) tərəfindən keçirilib. Komitə 1946-cı ildə Brüsseldə yaradılıb. Buna görə də dünyanın bir çox ölkələrində gözəllik müsabiqələri sentyabr ayında təşkil olunur.

Xatırladaq ki, dünyada ilk gözəllik yarışı 1888-ci ildə Belçikada, ilk "Dünya gözəli" müsabiqəsi isə 1951-ci ildə Londonda keçirilmişdir.

## Tarix nə deyir?

Qədim Misirdə simmetrik üz cizgiləri, baxımlı saçlar və göz makiyajı xüsusi əhəmiyyət daşıyırdı. Gözəl-

### Qədim Misir və Yunanıstanda gözəllik anlayışı

lik yalnız estetik zövq deyil, bəzən sosial statusun və mənəvi dünyagörüşünün də göstəricisi idi. Qədim Yunanıstanda isə gözəllik daha çox harmoniya və mütənasiblik anlayışları ilə bağlanırdı. İnsan bədəninin müəyyən nisbətlərə uyğunluğu ideal hesab edilirdi. Yunan filosofları gözəllik haqqında düşünərkən yalnız zahiri görünüşü deyil, yaxşılıq, həqiqət və mənəvi kamilliyi də nəzərə alırdılar.

Beləliklə, tarixdə maraqlı bir fikir formalaşdı: gözəl olan yalnız göz oxşayan deyil, həm də müəyyən bir harmoniya yaradandır.

### Orta əsrlərdə gözəllik...

Zaman keçdikcə gözəllik anlayışı dəyişməyə başlayıb. Orta əsrlər Avropasında dini dünyagörüşünün güclü təsiri insanın gözəllik təsəvvürlərinə də nüfuz etdi. Zahiri gözəllikdən çox mənəvi saflıq və təvazökarlıq ön plana çıxırdı.

Amma bu, insanların gözəlliyə marağının yox olması demək deyildi. Əksinə, geyim, saç düzümü, zinət əşyaları və kosmetik vasitələr müxtəlif cəmiyyətlərdə özünəməxsus şəkildə inkişaf edirdi.

Şərq dünyasında da gözəllik haqqında zəngin estetik təsəvvürlər yaranmışdı. Azərbaycan ədəbiyyatında və klassik Şərq poeziyasında gözəllik xüsusi yer tuturdu. Nizami Gəncəvinin əsərlərində gözəllik yalnız zahiri cazibə kimi deyil, sevgi, mənəviyyat və kamilliklə əlaqəli təqdim olunurdu.

### İntibah dövründə...

XV-XVI əsrlərdə Avropada İntibah dövrü başladı və insan obrazına münasibət yenidən dəyişdi. Rəssamlar insan bədənini, üzünü və duyğularını daha real təsvir etməyə başladılar.

Leonardo da Vinçinin əsərləri xüsusilə, insan anatomiyasına marağı, gözəlliyin artıq yalnız ideal obraz yaratmaqdan ibarət olmadığını göstərirdi. İnsan bədəni özü öyrənilməli, başa düşülməli və sənətdə ifadə olunmalı idi. Bu dövrdə gözəllik bir növ insanın özünəqayıdışı idi.

Bu gün arıq bədən bir çox moda jurnallarında və reklam kampaniyalarında ideal kimi təqdim oluna bilər. Ancaq tarixə baxanda bunun heç də həmişə belə olmadığını görürük. Müxtəlif dövrlərdə dolğun bədən firavanlığın, sağlamlığın və yüksək sosial vəziyyətin əlaməti hesab olunub. Çünki ərzağın hər kəs üçün əlçatan olmadığı cəmiyyətlərdə dolğunluq zənginliklə əlaqələndirilə bilirdi.



### Reklam, moda və gözəlliyin yeni üzü

XX əsr gözəllik anlayışında əsl inqilab yaratdı. Kino, televiziya, reklam və moda sənayesi insanların gözəllik haqqında düşüncəsinə böyük təsir göstərməyə başladı.

1920-ci illərdə qısa saçlı, daha sərbəst geyinən qadın obrazı populyarlaşdı. Sonrakı onilliklərdə isə müxtəlif bədən quruluşları və üz cizgiləri ideal kimi təqdim edilib. Hollivud ulduzları milyonlarla insan üçün gözəllik nümunəsinə çevrildi.

Beləliklə, gözəllik artıq yalnız ailənin, məhəllənin və ya şəhərin müəyyən etdiyi bir anlayış deyildi. Kütləvi informasiya vasitələri insanlara "gözəl necə görünməlidir?" sualının cavabını təqdim etməyə başladılar.

### Sosial media gözəlliyi yenidən dəyişdi...

XXI əsrdə gözəlliyin ən böyük səhnələrindən biri sosial media oldu. Bir zamanlar gözəllik standartlarını əsasən kino ulduzları və moda jurnalları müəyyən edirdisə, indi milyonlarla insan bu prosesin iştirakçısına çevrilib. Filtrlər, foto-redaktə proqramları və süni intellektlə dəyişdirilən görüntülər insanın öz görünüşünə münasibətini də dəyişir. Bəzən ekranda gördüyümüz "ideal" üz real həyatda mövcud belə deyil.

Bu isə yeni bir sual doğurur: Həqiqətən gözəllik görürük, yoxsa bizə göstərilən gözəllik obrazına baxırıq?

### Həqiqi gözəllik nədir?

Əslində, gözəllik insanın üz cizgilərindən daha böyük bir anlayışdır. O, insanın baxışında, danışığında, davranışında və həyata münasibətində özünü göstərir.

Həqiqi gözəllik, ilk növbədə, ürəyin gözəlliyidir. Mərhəmətli olmaq, ehtiyacı olana yardım etmək, böyüyə hörmət, kiçiyə qayğı göstərmək, başqasının uğuruna sevinə bilmək və heç kimin görmədiyi anda belə yaxşılıq etmək insanı gözəlləşdirən xüsusiyyətlərdir. Zahiri gözəllik zamanla dəyişir. İllər insanın simasına öz izini qoyur, dəb dəyişir, gözəllik haqqında təsəvvürlər yenilənir. Lakin xoş xasiyyət, səmimiyyət, mehribanlıq və insanlıq dəyərini heç vaxt itirmir.

Bəzən bir insanın üzündəki təbəssümün səbəbi onun gözəlliyindən daha çox yadda qalır. Bəzən isə sadə bir xoş söz, göstərilən diqqət və ya vaxtında uzadılan əl insanı başqalarının gözündə unudulmaz edir. Deməli, həqiqi gözəllik insanın necə göründüyündən çox, necə insan olduğunda gizlənir. Gözəllik yalnız gözlərə deyil, qəlbə də toxunanda həqiqi dəyər qazanır...

*Yeganə BAYRAMOVA*

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4448
Sifariş: 1159
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova